QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 168 (5399) 19 **sentyabr** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Prezident İlham Əliyev Nyu-Yorkda “BMT islahatlarına dair siyasi bəyannaməyə dəstək” adlı yüksək səviyyəli tədbirdə iştirak edib




Səh 2

7

**Yeni Dövlət Proqramının təsdiq olunması dövlətimizin gənc nəslin inkişafına diqqətinin parlaq ifadəsidir**



10

**Azərbaycanda genişmiqyaslı təlimlər başlayıb**



16

**Azərbaycan millisinin üzvü erməni cüdoçuya qalib gələrək Avropa çempionu olub**



# Prezident İlham Əliyev Nyu-Yorkda "BMT islahatlarına dair siyasi bəyannaməyə dəstək" adlı yüksək səviyyəli tədbirdə iştirak edib






***Sentyabrın 18-də Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının baş qərargahında "BMT islahatlarına dair siyasi bəyannaməyə dəstək" adlı yüksək səviyyəli tədbir keçirilib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.***

Yüksək səviyyəli tədbirdə ABŞ Prezidenti Donald Tramp çıxış edib.

BMT-də islahatlara ehtiyacın olduğunu deyən ABŞ Prezidenti Donald Tramp qurumun baş katibi Antonio Quterreşin bu istiqamətdə səylərini yüksək qiymətləndirib. D.Tramp vurğulayıb ki, bürokratiya və qeyri-səmərəli idarəçilik BMT-yə tam gücü ilə çalışmağa imkan vermir.

BMT-nin Baş katibi Antonio Quterreş dünyada çoxlu sayda insanların münaqişələrdən, aclıqdan əziyyət çəkdiklərini bildirib. "Bu insanların yardımımıza ehtiyacı var. Biz qurumda ciddi islahatlar həyata keçirməli, işimizi daha səmərəli icra etməliyik. Biz qlobal təşkilatıq və insanların bizə olan etimadını doğrultmalıyıq", - deyə A.Quterreş vurğulayıb.



## Prezident İlham Əliyev Azərbaycanın yəhudi icmasını təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdəki yəhudi icmasına təbrik məktubu ünvanlayıb. AZƏRTAC xəbər verir ki, təbrik məktubunda dövlətimizin başçısı yəhudi xalqını yeni il bayramı - Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərini çatdırır. Prezident İlham Əliyev qeyd edir ki, sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycan bu gün multikultural ənənələrin qorunub saxlanıldığı, ayrı-ayrı dinlər və mədəniyyətlər arasında qarşılıqlı hörmət və etimad mühitinin mövcud olduğu nadir məkanlardandır.

Məktubda vurğulanır ki, tarixən Azərbaycanda məskunlaşıb yaşayan yəhudi icmasının cəmiyyətimizdə özünəməxsus yeri vardır. Əlamətdar haldır ki, yəhudi vətəndaşlarımız ölkə həyatının bütün sahələrində yaxından iştirak edir, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fəal vətəndaş mövqeyi nümayiş etdirirlər. Dövlətimizin başçısının təbriki bu sözlərlə bitir: "Roş-Ha-Şana özündə yeniliyi, mənəvi saflığı və həmrəyliyi təcəssüm etdirən bir bayramdır. Yəhudi xalqının bu əziz günü qoy hamınızın həyatına xoş ovqat, ailələrinizə xoşbəxtlik və sevinc gətirsin. Bayramınız mübarək olsun!"

# Prezident İlham Əliyev Nyu-Yorkda Amerika yəhudi təşkilatlarının nümayəndələri ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Nyu-Yorkda Amerika Yəhudi Təşkilatının, Dünya Yəhudi Konqresinin, "Bnai Brith International"ın , Avrasiya Yəhudilərini dəstəkləyən Milli Koalisiyanın, Şimali Amerika Yəhudi Federasiyalarının, Amerika Yəhudi Təşkilatları Prezidentlərinin Konfransının, "Vaad L`Hatzolas Nidchei Yisroel" yəhudi təşkilatının rəhbərlərinin daxil olduğu Amerika yəhudi təşkilatlarının nümayəndələri ilə görüşüb.

# Prezident İlham Əliyev Nyu-Yorkda ABŞ Etnik Anlaşma Fondunun sədri və bir sıra dini liderlərlə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində ABŞ Etnik Anlaşma Fondunun sədri Ravvin Mark Şnayer və bir sıra xristian yevangelik dini liderlərlə görüşüb.

# Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparılıb

Sentyabrın 18-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlığın 25 illiyinə həsr olunmuş tədbirdə iştirak etmək üçün ölkəmizə səfərə gələn Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Siril Müller, Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembor və Beynəlxalq Maliyyə Korporasiyasının Cənubi Qafqaz üzrə direktoru Yan Van Bilsen ilə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Artur Rasi-zadə Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlığın 25 illiyi münasibətilə təbriklərini çatdırıb. Ötən müddətdə Azərbaycan Hökuməti ilə Dünya Bankı arasında faydalı əməkdaşlığa görə təşəkkürünü bildirən Baş nazir həyata keçirilən layihələrin ölkəmizin iqtisadiyyatında mühüm əhəmiyyətini vurğulayıb.

Siril Müller qeyd edib ki, son 25 il ərzində Azərbaycan orta iqtisadi artım tempinə görə Avropa və Mərkəzi Asiya regionu üzrə qabaqcıl ölkədir. Azərbaycanın dayanıqlı inkişafa nail olmaq yolunda vacib addımlar atdığını diqqətə çatdıran S.Müller Dünya Bankının növbəti illərdə də bu prosesə töhfə verməkdə davam edəcəyini bildirib.

Söhbət zamanı Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, aqrar sektorda ixrac potensialının artırılması, qeyri-neft sektorunun, kiçik və orta sahibkarlığın inkişafı, turizm imkanlarının genişləndirilməsi, yeni iş yerlərinin açılması və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 42-ci kitabı çapdan çıxıb




Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan bayrağına! Yaşasın, Azərbaycan! AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 42-ci kitabında yer alan bu fikirləri Prezident İlham Əliyev 2010-cu il sentyabrın 1-də Bakıda Dövlət Bayrağı Meydanının açılış mərasimindəki nitqində söyləyib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 42-ci kitabında toplanan materiallar 2010-cu ilin iyulundan oktyabr ayınadək dövrü əhatə edir.

Çoxcildliyin 42-ci nəşri Prezident İlham Əliyevin UNESCO-nun baş direktoru xanım İrina Bokova ilə görüşünə dair materialla başlayır.

Nəşrin 42-ci kitabında dövlətimizin başçısının Türkiyəyə, Özbəkistana və ABŞ-a rəsmi səfərləri, həmçinin Türkiyə və Rusiya prezidentlərinin Azərbaycana səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə ölkələrimiz arasında əlaqələrin inkişafına dair danışıqlarına dair materiallar yerləşdirilib. Kitabda Türkiyə Prezidenti Abdullah Gülün ölkəmizə rəsmi səfəri çərçivəsində "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"nin, həmçinin dövlətimizin başçısının qardaş ölkəyə rəsmi səfəri zamanı Azərbaycan və Türkiyə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamənin imzalanmasına dair informasiyalar oxuculara təqdim olunur. Bundan başqa, kitabda Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində Birləşmiş Ştatların Prezidenti Barak Obama ilə görüşünə dair materiallar, həmçinin BMT Baş Məclisinin 65-ci sessiyasındakı çıxışı yer alıb. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarında diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini regionun inkişafına əngəl olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək olmağa çağırıb. Kitabda dövlətimizin başçısının müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirləri, eləcə də ATƏT-in, Avropa İttifaqının, Dünya Bankının, ABŞ-ın, Rusiyanın, Niderlandın, İranın, Ukraynanın ölkəmizə səfər etmiş yüksək vəzifəli və nüfuzlu şəxsləri qəbul etməsinə dair materiallar da toplanıb.

Çoxcildliyin 42-ci kitabına Türkdilli Ölkələrin Dövlət Başçılarının X zirvə toplantısına, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan dövlət başçılarının dördtərəfli görüşünə, Prezident İlham Əliyevin "Caspian Agro" III beynəlxalq kənd təsərrüfatı, ərzaq emalı və qablaşdırma sərgisində iştirakına və MDB ölkələrinin kəşfiyyat xidmətləri və təhlükəsizlik orqanları rəhbərləri müşavirəsinin Bakıda keçirilən XI iclasının iştirakçıları ilə görüşünə dair materiallar daxil edilib. Nəşrin bu cildində, həmçinin dövlətimizin başçısının bölgələrə səfərləri zamanı söylədiyi nitqlər və ictimaiyyətin nümayəndələri ilə görüşlərindən bəhs edən informasiyalar toplanıb. Bu materiallar arasında Prezident İlham Əliyevin Kür çayının daşması nəticəsində yaranan təbii fəlakət zamanı Hacıqabul rayonunun Meyniman kəndi ərazisində evləri dağılan vətəndaşlar üçün yeni tikilən mənzillərin açılışında, Qəbələ, Qusar rayonlarında, Naxçıvan Muxtar Respublikasında, paytaxt Bakıda müxtəlif infrastruktur obyektlərinin istifadəyə verilməsi mərasimlərində iştirakı barədə informasiyalar, həmçinin dövlətimizin başçısının Nazirlər Kabinetinin 2010-cu ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr edilmiş iclasında giriş və yekun nitqləri də təqdim olunub. Kitaba "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri daxil edilib. "Azərnəşr" tərəfindən buraxılan 42-ci cildin hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Milli Məclisin komitə iclasında 19 məsələ müzakirə olunub

Sentyabrın 18-də Milli Məclisin elm və təhsil komitəsinin payız sessiyasında ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki, komitənin sədri İsa Həbibbəyli gündəlikdəki 19 məsələ barədə məlumat verib. Əvvəlcə elm və təhsil komitəsinin 2017-ci ilin yaz sessiyası ərzində fəaliyyəti haqqında və 2017-ci ilin payız sessiyası üçün iş planı müzakirə edilib. İclasda "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Qazaxıstan Respublikasının Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə məsələyə də baxılıb.

Həmçinin Əmək Məcəlləsində, "Diplomatik xidmət haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Dövlət qulluğu haqqında", "Əmək pensiyaları haqqında", "Geodeziya və kartoqrafiya haqqında", "Heyvanlar aləmi haqqında", "Muzeylər haqqında", "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Rəsmi statistika haqqında", "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Təhsil haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Yaşayış minimumu haqqında" qanunlara dəyişikliklər edilməsi barədə layihələr nəzərdən keçirilib.

İclasda Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi də müzakirə edilib.

# Azərbaycan şərqşünaslığının parlaq siması

***Nadir istedada malik elə şəxsiyyətlər var ki, onların elmə gətirdiyi yenilik və çəkdikləri zəhmətin tam həcmi zaman və elmi təfəkkür inkişaf edib zənginləşdikcə dərk edilir. İstedadlı alim, ictimai xadim, gözəl qadın və ana olan Aida İmanquliyeva belə alimlərdən, məhz belə şəxsiyyətlərdəndir.***

Bu gün XX əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi görkəmli simalardan biri - şərqşünas-alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın xatirə günüdür.

Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Görkəmli jurnalist, pedaqoq, əməkdar elm xadimi olan atası Nəsir İmanquliyev Azərbaycan mətbuatının bünövrəsini qoyanlardan biri olmuş və uzun müddət "Bakı" və "Baku" qazetlərinin baş redaktoru işləmişdir.



Bütün elmi fəaliyyətini Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapmasının tədqiqinə həsr edən Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə və yeni bir yol açıb

Aida İmanquliyeva Bakıda 132 saylı orta məktəbi qızıl medalla bitirdikdən sonra 1957-1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb dili şöbəsində təhsil alıb. 1966-cı ildə Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda ərəb filologiyası üzrə aspiranturanı bitirdikdən sonra Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda kiçik elmi işçi, daha sonra baş elmi işçi (1966-1976), ərəb filologiyası şöbəsinin müdiri (1976-1988), elmi işlər üzrə direktor müavini (1988-1991) vəzifəsini icra edən Aida xanım 1991-ci ildən həmin institutda direktor vəzifəsində çalışmışdır. 1976-1988-ci illərdə institutun ərəb filologiyası şöbəsinə rəhbərlik etdiyi müddətdə 10 nəfər ərəbşünas namizədlik dissertasiyalarını müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsinə yiyələnib. Şərqşünaslıq İnstitutunun elmi, ictimai-siyasi həyatında yaxından iştirak edən Aida İmanquliyeva işgüzar fəaliyyətinə görə, 1988-ci ildə institutun elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin olunmuş, bir il sonra isə uzun illər üzərində işlədiyi doktorluq dissertasiyasını müdafiə edərək, filologiya elmləri doktoru adına layiq görülmüşdür. Beləliklə, Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru, ilk professor - qadın olan Aida İmanquliyeva elmi işlərlə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olub. O, Azərbaycan Dövlət Universitetin şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatından dərs deyirdi. Elə məhz buna görə də SSRİ Nazirlər Soveti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyasının qərarı ilə ona "Xarici Asiya və Afrika xalqları ədəbiyyatı" ixtisası üzrə, 1991-ci ilin mart ayında professor elmi rütbəsi verilmişdir.

A.İmanquliyeva 1970-ci illərdə Azərbayca Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb dili müəllimi, filologiya elmləri namizədi M.Qarayevlə birlikdə "İnsan və quş" adlı hekayələr məcmuəsini çap etdirir. Bundan əlavə, "Ərəb filologiyası" şöbəsinin əməkdaşlarının tərcüməsində İraq yazıçılarının əsərlərindən ibarət kiçik bir antalogiyanın tərcüməsində və çapında da Aida xanımın gərgin əməyini xüsusi qeyd etmək lazımdır. "Ağ günlərin sorağında" adlanan həmin məcmuədə Aida xanımın tərcüməsində İraq yazıçısı Mahmud əz-Zahirin "Boğulmuş hıçqırıqlar" adlı hekayəsi də öz əksini tapıb. Bunlardan əlavə, Aida xanım müxtəlif illərdə respublikanın nəşriyyat orqanları tərəfindən ərəb ədəbiyyatı ilə bağlı çap olunmuş bir çox kitaba ön söz yazmış, xeyli sayda kitabın elmi redaktoru olmuşdur.

Aida İmanquliyevanın çoxsaylı elmi əsərlərində (3 monoqrafiya ("Mixail Nuayme və "Qələmlər birliyi", "Cubran Xəlil Cubran", "Yeni ərəb ədəbiyyatının korifeyləri") və 70-dən artıq elmi məqalə) Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur ki, bu da, nəinki ərəb ədəbiyyatının, həmçinin, bütün yeni Şərq ədəbiyyatlarının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaradır. Aida xanım yalnız yaradıcılığı ilə deyil, həm də təşkilatçılıq bacarığı, rəhbərlik fəaliyyəti ilə öz həyatının missiyasına - yaşadığı mühit və rejim çərçivəsində Azərbaycan milli özünüdərkinin qorunub-saxlanılması və inkişafı idealına sadiq qalmışdır. İstedadlı gənc alim 1967-ci ilin martında Moskvada namizədlik dissertasiyasını uğurla müdafiə edib filologiya elmləri namizədi alimlik dərəcəsini aldıqdan sonra elmi fəaliyyətini Azərbaycan EA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunda davam etdirmişdir.

1964-cü ildə "Mixail Nüaymə və XIX əsr qabaqcıl rus ədəbiyyatı" adlı ilk mətbu məqaləsi "Azərbaycan" jurnalında dərc olunmuşdur. O, Livan yazıçısı M.Nüaymənin bir neçə hekayəsini ərəb dilindən rus dilinə tərcümə edərək, 1979-cu ildə Moskvada "Vostoçnı almanax" jurnalında çap etdirmişdir. Müasir ərəb ədəbiyyatının aktual problemləri və rus-ərəb ədəbi əlaqələri haqqında məqalələri dövri mətbuatda - toplularda və elmi-kütləvi məcmuələrdə müntəzəm çap olunmuşdur.

Aida İmanquliyeva 1971-1973 və 1979-1981-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun nəşr etdirdiyi "Ərəb filologiyası məsələləri" məcmuəsinin tərtibçisi və redaktoru vəzifəsində çalışıb. "Şərq şairləri Lenin və Sovetlər ölkəsi haqqında"(1970), "Böyük Oktyabr və Şərq xalqlarının milli azadlıq mübarizəsi" (1977), "Sovet Azərbaycanı və xarici Şərq" (1980), "Yaxın Şərq xalqlarının müasir ədəbiyyatında tərəqqi və ictimai ədalət uğrunda mübarizə problemi" (1982), "Yaxın və Orta Şərqdə milli azadlıq hərəkatı məsələləri" (1985), "Şərq filologiyası məsələləri" (1986-1987), "Yaxın Şərq xalqları ədəbiyyatı imperializmə qarşı mübarizədə" (1987), "Xarici Şərqin problemləri: tarix və müasirlik" (1988), "Şərq ədəbiyyatında ənənə və novatorluq" (1988) məqalələr məcmuələrinin redaksiya heyətinin üzvlərindən, müəlliflərindən və redaktorlarından biri olmuşdur. İctimai işlərdə fəal çalışmışdır.

A.İmanquliyeva 1987-ci ildə Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin üzvü və 1983-cü ildən etibarən sözügedən cəmiyyətin Azərbaycan bölməsi sədrinin müavini olmuşdur. Moskva, Bakı, Düşənbə, Hamburq, Kiyev, Sankt-Peterburq, Poltava, Tbilisi və digər şəhərlərdə keçirilən Şərq problemlərinə həsr olunmuş beynəlxalq konfranslarda məruzələrlə çıxış edib.

Bütün elmi fəaliyyətini Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapmasının tədqiqinə həsr edən Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə və yeni bir yol açıb.

Onun elmi fəaliyyəti, nəinki ərəb ədəbiyyatının, həmçinin, bütün yeni Şərq ədəbiyyatının gələcəkdə tədqiqisi üçün çox mühüm zəmin yaradır.

Aida xanımda Azərbaycan qadınlarına xas olan ən nəcib keyfiyyətlər təcəssüm edirlidi. Onun ömür yolu həyatın, varlığın əsasında duran mənəvi bağları qurmağa, tamlığa və vəhdətə can atan bir insan idrakının, bir ana, bir qadın ruhunun təcəssümü olub. Onun bütün elmi-bədii yaradıcılığı, ictimai fəaliyyəti də bütövlüyə və vəhdətə can atan xarakterin ifadəsi olub. Xalqımızın tarixində ilk azərbaycanlı qadın - ərəbşünas - elmlər doktoru olan bu böyük alim öz həyatını xalqının tarixinin, ənənələrinin minillik dərin köklərlə bağlı olduğu Şərq mədəniyyətini və ədəbiyyatını öyrənməyə sərf edib və özünün şəxsiyyəti və yaradıcılığı timsalında dünənimizlə bugünümüz arasındakı əlaqə bağlarını bərpa etməyə çalışıb.

Görkəmli ədəbiyyatşünas xanım A.İmanquliyeva 1992-ci il sentyabrın 19-da Bakıda vəfat edib.

***ZÜMRÜD***

# “Əsrin müqaviləsi”ndən Yeni “Əsrin müqaviləsi”nə!

## *Prezident İlham Əliyev: “Azərbaycanın əsas hədəfi neft gəlirlərini insan kapitalına çevirmək olub və bu məqsədə nail olunub”*



***Bakıda “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun işlənməsi üzrə Hasilatın Pay Bölgüsü sazişinin 2050-ci ilə qədər uzadılmasını nəzərdə tutan sazişin imzalanması və bu tarixi mərasimdə səsləndirilən bəyanatlar, irəli sürülən fikirlər müstəqil Azərbaycanın növbəti illərdə də yürüdəcəyi xarici siyasətə və neft strategiyasının müəyyənləşdirilməsində uğurlara imza atacağını deməyə kifayət qədər zəmin yaradır. Yeni sazişə əsasən, “Azəri-Çıraq-Günəşli” yataqları üzrə tərəfdaşların iştirak payları dəyişib. Xarici şirkətlərin payı nisbətən azalıb, SOCAR-ın payı isə əvvəlki razılaşma ilə müqayisədə 2 dəfədən çox artıb. Əvvəlki razılaşmada bp 36%-ə yaxın, SOCAR 11,6% paya malik idi, “Şevron” və “İnpeks” hər biri təxminən 11%-lə iştirakçı idi. Yeni sənəddə isə bp-nin payı 30,37%-ə düşəcək, SOCAR-ın hissələri isə 25%-ə çatacaq. Digər iştirakçıların hamısı 10%-dən az paya sahib olacaq. Layihənin operatoru yenə bp olacaq. Saziş Milli Məclisdə ratifikasiya edildikdən sonra qüvvəyə minəcək.***

### Ulu Öndər Heydər Əliyev uzaqgörənliyinin sayəsində Azərbaycan dünyanın siyasi-iqtisadi arenasında seçilmişlər sırasında yer almış oldu

Tariximizə “Yeni əsrin müqaviləsi” kimi həkk olunan bu saziş isə “Əsrin müqaviləsi”ndən bu günə qədər keçilən uzun və keşməkeşli yolu bir daha xatırlatmağı zəruri edir. Belə ki, “Əsrin müqaviləsi”nin müstəqillik tariximizə verdiyi başlıca töhfələrdən biri və ən önəmlisi ölkəmizin xarici siyasətini balanslaşdırmaq imkanı verdi ki, bunun nəticəsində Azərbaycan dünyanın siyasi arenasında öz iqtisadiyyatı ilə seçilmişlər sırasında yer almış oldu. Halbuki hələ “Əsrin müqaviləsi” imzalandığı dövrlərdə Azərbaycan öz müstəqilliyini yeni əldə etmişdi və bu müstəqilliyin əsasları hələ tam olaraq möhkəmləndirilməmişdi.

Misal üçün, Azərbaycan da daxil olmaqla, Cənubi Qafqaz regionunda qeyri-sabitlik hökm sürürdü. Bu vəziyyətdən istifadə edən xarici qüvvələr, əsasən, nəzərlərini ölkəmizə dikmişdilər. Çünki zəngin neft-qaz və s. ehtiyatlara malik olan Azərbaycan həmin qüvvələrin dünyadakı hegemonluqlarını təmin etməkdən ötrü ən yaxşı vasitə idi. Güclər arasındakı mübarizələr də bura daxil idi. Məsələn, ABŞ-İran, ABŞ-Rusiya, Avropa-Rusiya münasibətlərindəki gərginliklər dərhal Azərbaycana öz mənfi təsirlərini göstərirdi. Belə ki, Azərbaycanın yerləşdiyi məkan, demək olar ki, siyasi baxışların toqquşduğu mərkəzə çevrilmişdi. Məhz Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi və qətiyyətli səyləri nəticəsində bir sıra həll edilməsi mümkün görünməyən problemlər, məsələlər öz həllini tapdı və Azərbaycan baş verə biləcək real təhlükələrdən sovuşdu. Bununla da, ölkə tariximizdə yeni səhifə açılmış oldu. Bu səhifə Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasını təmin edəcək müqavilənin imzalanması ilə açıldı. Müqavilə imzalandıqdan sonra hüquqi baza yaradıldı, ölkəyə qarşı təzyiqlər neytrallaşdırıldı və Azərbaycanın xarici siyasət kursu balanslaşdırıldı.

### “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun işlənməsində yeni dövr başlayır

Beləliklə, “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun işlənməsinə dair yeni saziş Azərbaycan üçün daha əlverişli şərtlərlə imzalandı. Məhz Prezident İlham Əliyev “Azəri-Çıraq-Günəşli” yataqlarının işlənməsi üzrə Hasilatın Pay Bölgüsü sazişinin 2050-ci ilədək uzadılmasını nəzərdə tutan müqavilənin imzalanması mərasimində bu cür vurğuladı. Ölkə başçısı qeyd etdi ki, bu, Azərbaycan üçün əlamətdar və tarixi bir gündür. Cənab Prezident deyib ki, saziş Azərbaycan üçün daha əlverişli şərtlərlə imzalanır: “Kontrakt imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar bonus ödəniləcək”. Sazişin şərtlərinə əsasən, SOCAR-ın iştirak payı 25%-ə çatdırılır. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75% təşkil edəcək.

Dövlət başçımız daha bir xatırlatmaq edərək bildirib ki, “Əsrin müqaviləsi” imzalanan zaman AÇG-də 511 milyon ton neft olduğu ehtimal edilirdi, ancaq ehtiyatlar proqnozları üstələyib və hazırda “Azəri-Çıraq-Günəşli”də hasil edilməmiş 500 milyon ton neft var. Bu baxımdan, “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun işlənməsində yeni dövr başlayır. “Müqavilənin ölkəmiz üçün böyük əhəmiyyəti var”-deyə qeyd edən ölkə Prezidenti İlham Əliyev, həmçinin, onu da xatırladıb ki, “Əsrin müqaviləsi”ndən ötən 23 il ərzində kontraktın icrası çox uğurlu olub: “Bu illər ərzində “Azəri-Çıraq-Günəşli”dən 436 milyon ton neft hasil edilib. Burada hələ hasil edilməmiş təxminən 500 milyon ton neft ehtiyatı var”.

Dövlət başçısının sözlərinə görə, Azərbaycanın əsas hədəfi neft gəlirlərini insan kapitalına çevirmək olub və bu məqsədə nail olunub. Məhz bu reallıq göz önündədir. Əldə edilən neft gəlirləri sayəsində bu gün ölkəmiz beynəlxalq aləmin mərkəzi rolunu oynayır. İstər regionlarımızın sosial-iqtisadi inkişafı, istər yeni sənaye mərkəzlərinin açılışı, istərsə də digər sahələrdə əldə edilən hər bir uğur arxasında dayanan əsas faktorlardan biri, məhz Azərbaycan vətəndaşının həyatının daha da yaxşılaşdırılması idi ki, buna da nail olunub. Dövlət başçısının sözlərinə görə, bu gün bütün Azərbaycan xalqı “Əsrin müqaviləsi”nin nəticələrini öz həyatında görür. “Yeni sənədin Heydər Əliyevin adını daşıyan mərkəzdə imzalanması rəmzi məna daşıyır. 23 il əvvəl Heydər Əliyevin səyi ilə “Əsrin müqaviləsi” imzalanmışdı. Bu gün imzalanan sənəd göstərir ki, Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır və yaşayacaq”.

Artıq yeni “Əsrin müqaviləsi” növbəti nailiyyətləri əldə etməyə hesablanmış uğur addımı olaraq qiymətləndirilə bilər.

### <u>Böyük Brtitaniyanın baş naziri Tereza Mey:</u> “Məhz bu saziş Azərbaycana ilk dəfə tam müstəqil ölkə kimi özünün Xəzərdəki neft-qaz ehtiyatlarından yararlanmağa imkan verdi”

Diqqətçəkən mühüm məqamlardan biri də Prezident İlham Əliyevin Azərbaycanın öz xarici tərəfdaşları ilə, xüsusilə, bp ilə uğurlu əməkdaşlığını yüksək qiymətləndirməsi olub. Əbəs yerə deyil ki, Böyük Britaniyanın baş naziri Tereza Mey “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun işlənməsi üzrə imzalanmış sazişin 2050-ci ilədək uzadılmasının nəzərdə tutulması ilə bağlı ölkə başçımıza təbrik məktubu ünvanlayıb. Həmin məktubu mərasimdə Böyük Britaniyanın Avropa və Amerika məsələləri üzrə dövlət naziri Alan Dunkan oxuyub. Təbriki oxumazdan öncə, Britaniyalı nazir Azərbaycanın tərəqqisinin şahidi olduğunu, iki ölkə arasında əlaqələrin daha da inkişaf edəcəyini vurğulayıb. Tereza Meyin təbrik məktubunda isə, önə sürülən fikirlər sübuta yetirir ki, Böyük Brtitaniya Azərbaycanla istər bu, istərsə də digər iqtisadi layihələrdə əməkdaşlıq edərək, ölkəmizi etibarlı tərəfdaş kimi dəyərləndirir. Məhz bu baxımdan, məktubda xüsusilə qeyd edilir ki, imzalanan tarixi saziş Böyük Britaniya ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın yeni mərhələsidir: “Böyük Britaniya, xüsusilə, bp 1994-cü ildə “Əsrin müqaviləsi” imzalanandan bəri Azərbaycan iqtisadiyyatının inkişafında önəmli rol oynayıb. Məhz bu saziş Azərbaycana ilk dəfə tam müstəqil ölkə kimi özünün Xəzərdəki neft-qaz ehtiyatlarından yararlanmağa imkan verdi. Bakı-Tbilisi-Ceyhan neft kəməri isə Azərbaycanın öz neftini sərbəst olaraq dünyaya çıxarması üçün mühüm addım oldu. 2020-ci ildə isə Cənub Qaz Dəhlizinin istifadəyə verilməsi Azərbaycanın Avropanın əsas qaz təchizatçısına çevrilməsi istiqamətində son mərhələ olacaq”.

### <u>bp şirkətinin icraçı direktoru Robert Dadli:</u> “Azərbaycanın neft-qaz hasilatının artırılması üçün əməkdaşlığımıza davam edəcəyik”

Mərasimdə çıxış edən bp şirkətinin icraçı direktoru Robert Dadli bildirdi ki, sazişin imzalanması ilə tərəfdaşlığın yeni səhifəsi açılır. O, 1994-cü ildə Heydər Əliyevin uğurlu siyasəti nəticəsində imzalanan əsrin kontraktının bu gün real nəticələri olduğunu bildirdi: “Cənab prezident sizin və mərhum atanızın enerji siyasəti bu gözəl ölkədə iqtisadi inkişafa təkan verib və dünyanın enerji xəritəsini həmişəlik dəyişib. Bu gün isə biz bu sazişi əsrin yarısına qədər uzadırıq. Biz bu sənədi yeni əsrin kontraktı adlandıra bilərik. Mən tərəfdaşlarımızı təbrik edirəm. Biz birgə 23 illik fəaliyyətimiz dövründə və gələcəkdə “Azəri-Çıraq-Günəşli”yə 40 milyard dollardan çox sərmayə qoyaraq, Azərbaycanın neft-qaz hasilatının artırılması üçün əməkdaşlığımıza davam edəcəyik”. Mərasimdə Türkiyənin enerji və təbii ehtiyatlar naziri Berat Albayrak ölkə prezidenti Rəcəb Tayyib Ərdoğanın, Gürcüstanın energetika naziri Elya Eloşvili isə ölkəsinin baş naziri Giorgi Kvirikaşvilinin təbrik məktubunu oxuyub.

Yeni müqavilənin imzalanması ətrafında təhlillərimizi apararkən, həm də belə nəticəyə gəlmək mümkündür ki, bu müqavilədə iştirak edən şirkətlər dünyada tanınmış şirkətlər olduğuna görə, həm də dünyanın aparıcı dövlətlərinə məxsusdurlar. Məhz bu baxımdan, həmin dövlətlərin və şirkətlərin iştirakçısı olduğu müqavilələr daima qorunub-saxlanılır, çalışılır ki, regionda heç bir ciddi problemlər yaranmasın. Bu isə Azərbaycan üçün əhəmiyyətlidir. Ona görə də, belə bir amilə də toxunaraq, qeyd edə bilərik ki, müqavilənin imzalanması həm də möhkəm əsaslara dayanan müstəqilliyimizin və ölkəmizdəki stabilliyin qorunub-saxlanılması baxımdan əhəmiyyətlidir. Bununla, həm də Azərbaycanın müstəqil ölkə olaraq dünyadakı mövqeyi daha da möhkəmlənəcək ki, bu faktor yaxın illərdə ölkəmizin dünyanın siyasi-iqtisadi məkanındakı yerini və rolunu növbəti dəfə artırmış olacaq.

***Rövşən NURƏDDİNOĞLU***

# Naxçıvanda “Milli Musiqi Günü” qeyd olunub



***Sentyabrın 18-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında “Milli Musiqi Günü” münasibətilə tədbir keçirilib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak edib. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 18 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında mədəniyyət sahəsində səmərəli fəaliyyətlərinə görə Əsgərov Amil Əkbər oğlu, Əsgərov Səməd Elşən oğlu, Fərzəliyev Arzu İsmayıl oğlu və Həsənova Qəribə İbrahim qızı Naxçıvan Muxtar Respublikasının “Əməkdar artisti” fəxri adı ilə təltif olunublar.

Ali Məclisin Sədri təltif olunanlara Naxçıvan Muxtar Respublikasının “Əməkdar artisti” fəxri adının döş nişanını və vəsiqəsini təqdim edib.

Təltif olunanlar əməklərinə verilən qiymətə görə minnətdarlıq edib, bundan sonra da muxtar respublikada mədəniyyətin, eləcə də musiqi sənətinin inkişafında səylərini əsirgəməyəcəklərini bildiriblər.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova tədbirdə çıxış edərək deyib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1995-ci ildə imzaladığı Fərmana əsasən hər il ölkəmizdə Şərqdə ilk musiqili teatr sənətinin banisi, Azərbaycan musiqisinin klassiki, görkəmli alim-musiqişünas, publisist, dramaturq, pedaqoq və ictimai xadim Üzeyir Hacıbəyovun doğum günü - 18 sentyabr “Milli Musiqi Günü” kimi qeyd olunur. Novator sənətkar olan Üzeyir Hacıbəyov Azərbaycan klassik musiqisinin bütün janrlarının bünövrəsini qoyub. Bu gün ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında da milli musiqimizin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Muxtar respublika mədəniyyəti özünün yeni inkişaf dövrünü yaşayır. Bu yüksəlişin fonunda milli musiqi sənətinin də inkişafı təmin olunub. Son illər Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə yeni musiqi məktəbləri tikilib istifadəyə verilib, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin maddi-texniki bazası gücləndirilib, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının və Aşıqlar Birliyinin fəaliyyəti təmin edilib. Muxtar respublikada milli musiqimizin təbliği istiqamətində də mühüm tədbirlər görülür, yaradıcı kollektivlərin xarici ölkələrə qastrol səfərləri təşkil edilir. Musiqimizin inkişafı istiqamətində görülən tədbirlər uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərini də əhatə edib. Son illər 20-dən çox musiqi məktəbi üçün bina inşa olunaraq və ya yenidən qurularaq istifadəyə verilib. Hazırda muxtar respublikada 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi fəaliyyət göstərir.



Qeyd olunub ki, uşaqların istedadının üzə çıxarılmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 19 aprel tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyasının da mühüm rolu vardır. 1998-ci ildə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin nəzdində konservatoriyanın açılması isə ali təhsilli musiqiçi kadrların yetişdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamından sonra Azərbaycan xalqının tarixini özündə yaşadan xalq musiqisi, yallılar, xalq rəqsləri, toy adətlərinin tədqiqinə və təbliğinə başlanıb. Natəvan Qədimova muxtar respublikada musiqinin və mədəniyyətin inkişafına göstərdiyi diqqət və qayğıya görə bütün mədəniyyət işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.





Sonra Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin və rəqs qrupunun ifasında konsert olub.

Orkestrin bədii rəhbəri və dirijoru Azərbaycan Respublikasının Xalq Artisti Çingiz Axundov, baletmeyster Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət İşçisi Təmerlan Bağırovdur. Konsertdə görkəmli Azərbaycan bəstəkarları Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Tofiq Quliyevin, Fikrət Əmirovun, Niyazinin, Vasif Adıgözəlovun, Ramiz Mirişlinin, dünya musiqisinin korifeylərindən Volfhanq Amadey Motsartın, İohan Bramsın, Antonio Vivaldinin, İohan Ştrausun, Karlos Qardelin əsərlərindən parçalar, eləcə də xalq mahnıları səslənib, milli musiqi alətimiz balabanda Azərbaycan xalq mahnısı “Sarı gəlin” ifa olunub. Azərbaycan Respublikasının Əməkdar artistləri Tural Nəcəfovun, Gülyanaq Fərzəliyevanın, Mübariz Əsgərovun, Vilayət İsmayılovun və Naxçıvan Muxtar Respublikasının Əməkdar Artisti Zülfüqar Mahmudovun çıxışları alqışlarla qarşılanıb, rəqs qrupu milli və dünya rəqs nümunələrini məharətlə ifa edib.

Ali Məclisin Sədri konsertdən sonra səhnə arxasına keçərək ifaçılarla görüşüb, onları “Milli Musiqi Günü” və uğurlu çıxışlarına görə təbrik edərək deyib: Bugünkü uğurlu konsert proqramı bir daha göstərdi ki, Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestri bütün səhnələrdə çıxış etməyə qadirdir. Son illər Naxçıvan musiqi həyatında böyük uğurlar qazanılıb, orkestrlər yaranıb, dəyərli musiqiçilər yetişib. Bütün bunlar yaradılan şəraitin nəticəsində mümkün olmuşdur. Muxtar respublikada musiqi təhsilinin bütün pillələri üzrə kadr hazırlığı təmin edilmişdir. Kəndlərdə fəaliyyət göstərən musiqi məktəbləri, dərnəklər, Naxçıvan Dövlət Musiqi Kolleci, Naxçıvan Dövlət Universitetinin Konservatoriyası muxtar respublikada ixtisaslı musiqiçi kadrların yetişməsinə, musiqi mədəniyyətinin inkişafına və milli musiqimizin yaşadılmasına xidmət edir. Musiqinin sərhədi və milləti yoxdur. Bu gün Üzeyir Hacıbəyovun əsərləri hansı ölkədə ifa olunsa, ölkəmizdəki qədər seviləcəkdir. Eyni zamanda Bethovenin, Motsartın əsərləri bütün dünya ölkələrində səhnələri fəth edir. Bugünkü konsertdə də həm xalq yaradıcılığı nümunələri, həm də görkəmli Azərbaycan və dünya bəstəkarlarının əsərləri ifa olundu.

Ali Məclisin Sədri deyib: Milli musiqi o yerdə inkişaf edir ki, onun kökü olsun. Xalq isə o zaman milli musiqisi ilə fəxr edir ki, onun musiqi sənəti qədim xalq yaradıcılığı nümunələrinə, xalq musiqisinə əsaslansın. Çünki hər bir xalqın varlığı həm də onun xalq yaradıcılığında, xalq musiqisində yaşayır. Bu gün Gəmiqaya abidələrində həkk olunan qədim yallı nümunələri milli musiqimizin minillik inkişaf tarixindən xəbər verir. Ali Məclisin Sədri muxtar respublikada istedadlı musiqiçilərin yetişməsinin və uğurlu konsertlərin təşkilinin fəxr doğurduğunu bildirib, orkestrin bədii rəhbərinə və bütün kollektivə təşəkkür edib, onlara yeni yaradıcılıq uğurları arzulayıb. Sonra xatirə şəkli çəkdirilib.

# Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin könüllüləri ilə görüş keçirilib





***Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Regional İnkişaf İctimai Birliyinin (RİİB) Gəncə şəhərində könüllülərlə görüşü təşkil olunub. Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Bakıda iki il ardıcıl keçirilən marafon yarışlarının böyük marağa səbəb olduğunu bildirib.***

Qeyd edilib ki, Regional İnkişaf İctimai Birliyi tərəfindən bölgədə belə bir yarışın təşkil olunması təklifi irəli sürülüb. Regionda ilk dəfə keçirilən Gəncə marafonunda 11 min şəxsin iştirak etməsi bu layihəyə bölgələrdə də böyük marağın olduğunu göstərir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Regional İnkişaf İctimai Birliyinin artıq bir illik fəaliyyət dövrünün başa çatmaqda olduğunu deyən Anar Ələkbərov ötən müddətdə region sakinlərindən gələn hər bir təklifin diqqətdə saxlanıldığını qeyd edib.

RİİB-in gördüyü işlərin birbaşa insanlara xidmət edən layihələr olduğunun Heydər Əliyev Fondunun prezidenti tərəfindən yüksək qiymətləndirildiyi bildirilib. Qeyd olunub ki, təşkilatın sosial, səhiyyə, təhsil sahələrindəki layihələrində, o cümlədən regionlarda təhsil ocaqlarının qurulmasında və lazımi avadanlıqla təmin olunmasında, fiziki imkanları məhdud şəxslərə yönəlik işlərində RİİB könüllüləri yaxından iştirak edib.

Anar Ələkbərov Heydər Əliyev Fondunun regionlarda gördüyü işlərdən danışaraq Şəki şəhərindəki uşaq evi üçün artıq yeni binanın inşasına başlanıldığını və Gəncədə də uşaq evi ilə bağlı layihələrin icrasının nəzərdə tutulduğunu qeyd edib.

Təşkilatın hər bir regiondan olan könüllüsü bundan sonra da RİİB layihələrində fəal iştiraka və Azərbaycan, ölkə Prezidenti naminə gözəl işlər ətrafında səfərbər olmağa çağırılıb.



Görüşdə çıxış edən Milli Məclisin deputatı Qənirə Paşayeva RİİB tərəfindən həyata keçirilən layihələrin, o cümlədən Gəncədə təşkil olunan marafonun bölgələrin və gənclərin fəallığı baxımından əhəmiyyətli olduğunu deyib.

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Masallıda vətəndaşları qəbul edəcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyəsinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam edir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı sentyabrın 21-də Masallı rayonunda vətəndaşları qəbul edəcək. Qəbul Masallı şəhəri Heydər Əliyev Mərkəzində (Qarabağ küçəsi, 17) saat 11:00-da keçiriləcək. Qəbulda Masallı, Cəlilabad, Yardımlı rayonlarının sakinləri iştirak edə bilərlər. Qəbula gəlmək istəyən vətəndaşlardan Dövlət Komitəsinin Masallı bölgəsi üzrə şöbəsinə müraciət etmələri xahiş olunur.

## Seymur Orucov: Yeni Dövlət Proqramının təsdiq olunması dövlətimizin gənc nəslin inkişafına diqqətinin parlaq ifadəsidir



"Ölkə Prezidentinin sərəncamı ilə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunması dövlətimizin gənc nəslin inkişafına diqqətinin parlaq ifadəsidir. Gənclər hər bir ölkənin ictimai-siyasi, sosial-mədəni həyatında mühüm rola malik bir qüvvədir. Gənclərə verilən dəstək həm də ölkənin güclü və firavan gələcəyinə edilən yatırımdır. Təsadüfi deyil ki, bu gün Azərbaycanda həyata keçirilən dövlət siyasətin önəmli tərkib hissəsini məhz gənclər siyasəti təşkil edir". Bu fikirləri yap.org.az saytına YAP Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucov deyib. S.Orucov bildirib ki, Azərbaycanda gənclər dövlətin diqqət və qayğısını hər zaman öz üzərində hiss edib. Onun sözlərinə görə, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin başlıca hədəfi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir.

"Yeni Dövlət Proqramının məqsədi də Azərbaycan Respublikasında gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə, malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayır. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Gənclərimiz iştirak etdikləri beynəlxalq olimpiadalarda və idman yarışlarında yeni-yeni qələbələrlə ölkəmizin şərəfini ucaldıblar. Təbii ki, dövlətin bu istiqamətdə gördüyü tədbirlər bundan sonra da davam etdiriləcək. Belə ki, gəncliyin inkişafı ilə bağlı yeni dövlət proqramının qəbul olunması bu faktı bir daha təsdiqləyir. Bütövlükdə bu istiqamətdə reallaşdırılan proqramlar Azərbaycan gəncliyinin inkişafına böyük töhfələr verir"- deyə, S.Orucov vurğulayıb.

# Cocuq Mərcanlıda tikinti işlərinin növbəti mərhələsi yekunlaşmaq üzrədir

Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində Prezident İlham Əliyevin 2017-ci il 15 iyun tarixli Sərəncamına əsasən, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən aparılan tikinti-bərpa və abadlıq-quruculuq işlərinin növbəti mərhələsi uğurla davam etdirilir. AZƏRTAC xəbər verir ki, inşaat işlərinə 30-a yaxın texnika, 350-dən çox işçi cəlb edilib. Bu mərhələdə 100 evin, 50 yerlik uşaq bağçasının, poçt, tibb məntəqəsi və klub-icma mərkəzi üçün binaların və digər zəruri infrastruktur obyektlərinin tikintisi aparılır. 17 hektar ərazidə inşa edilən evlərin 14-ü birotaqlı, 38-i ikiotaqlı, 36-sı üçotaqlı, 12-si dördotaqlıdır. Hər bir ailə üçün 0,10 hektar torpaq sahəsi ayrılıb. Artıq bütün evlərdə hörgü, daxili və xarici suvaq işləri başa çatıb, dam örtükləri vurulub. İnşa olunacaq iki ədəd 200 kubmetrlik su anbarından biri hazırdır, həmçinin bir subartezian quyusu qazılıb.

Evlərin inşasında son tamamlama işləri aparılır. Uşaq bağçasında döşəmə, inzibati bina və poçt binasında dam örtüyü vurulur. Klub-icma mərkəzində daxili suvaq, malyar işləri görülür. Qəsəbədaxili elektrik, qaz və su xətlərinin çəkilişi, daha bir 200 kubmetrlik su anbarının tikintisi və əlavə bir subartezian quyusunun qazılması davam etdirilir. Yaxın günlərdə qəsəbədaxili küçələrdə asfalt işlərinə başlanılacaq. Qəsəbədə, həmçinin 1,75 hektarda yaşıllıq salınacaq. Tikinti işlərinin oktyabr ayının birinci yarısında başa çatdırılması nəzərdə tutulur. Qəsəbədəki evlərə Cocuq Mərcanlı kəndindən olan məcburi köçkünlər köçürüləcək.

# Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Gəncə Marafonu - 2017" keçirilib

***Sentyabrın 17-də Gəncə şəhərində Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Gəncə Marafonu - 2017" keçirilib. AZƏRTAC xəbər verir ki, marafonda 11 min nəfərdən çox şəxs iştirak edib. Yarış paytaxt Bakı, respublikanın ayrı-ayrı bölgələri, eləcə də müxtəlif ölkələri əhatə edib.***



Tədbir "İradənlə tarix yaz", "Marafonda bizimlə ol" şüarı altında keçirilib. İştirakçılar arasında hökumət nümayəndələri, Milli Məclisin deputatları, mədəniyyət xadimləri də olublar. Marafonda Rusiya, Türkiyə, Ukrayna, Gürcüstan, İtaliya, İran və digər ölkələrin vətəndaşları da yarışıblar. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Anar Ələkbərov iştirakçıları salamlayaraq bildirib ki, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycanda artıq 3-cü marafon keçirilir. İnsanların bu marafonlara qoşulması, iştirakçı sayının getdikcə artması Azərbaycanda idman tədbirlərinə böyük maraq olduğunu göstərir. "Hər birinizi bütün layihələrimizdə iştiraka çağırıram", - deyə A.Ələkbərov bildirib. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev marafon iştirakçılarını, xüsusilə gəncləri idman tədbirlərində fəal olmağa səsləyib.

Daha sonra marafona start verilib. İştirakçılar "Zəfər tağı"ndan Nizami Gəncəvi prospekti, Heydər Əliyev prospekti, Cavad xan küçəsi, "Gəncəçay" bulvarı, Şah İsmayıl Xətai prospekti ilə hərəkət edərək Heydər Əliyev park kompleksinə qədər məsafəni qət ediblər. Marafonun uzunluğu ümumilikdə 17 kilometr olub.



"Gəncə Marafonu - 2017"nin qalibləri iki kateqoriyada - kişi və qadın iştirakçılar arasında müəyyənləşib. Kişilər arasında finiş xəttini ilk olaraq Türkiyə vətəndaşı Üzeyir Söyləməz, ikinci İrandan olan Mohammed Cəfər Muradi, üçüncü Gürcüstan vətəndaşı Omar Baikeyev keçib.

Qaliblərə mükafatı Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Anar Ələkbərov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, "Azercell Telekom"un prezidenti Vahid Mürseliyev təqdim ediblər.

Qadınlar arasında isə birinci yeri Ukrayna vətəndaşı Valentina Poltavska, ikinci yeri Azərbaycan vətəndaşı Anna Yusipova, üçüncü yeri Böyük Britaniya vətəndaşı Nataşa Petersen qazanıb.

Xanım idmançılara mükafatları kikboksinq üzrə beşqat dünya çempionu, üçqat Avropa çempionu Zabit Səmədov, deputat Qənirə Paşayeva və Əməkdar Artist Röya Ayxan təqdim ediblər.

Qeyd edək ki, kişi və qadın kateqoriyalarının hər birində 1-ci yerin qalibi 3 min, 2-ci yerin qalibi 2 min, 3-cü yerin qalibi isə min manat məbləğində mükafat və hədiyyələrlə, eləcə də medal və sertifikatlarla təltif olunublar.

"Gəncə Marafonu-2017"nin kişilər arasında qalibi Türkiyə vətəndaşı Üzeyir Söyləməz jurnalistlərə müsahibəsində Azərbaycanda keçirilən marafonlarda ikinci dəfə iştirak etdiyini bildirib. "Bakı marafonu - 2017"də ikinci yeri tutan Üzeyir Söyləməz "Gəncə Marafonu-2017"nin yüksək səviyyədə təşkil olunduğunu qeyd edib.

"Gəncə Marafonu-2017"nin qadınlar arasında qalibi Ukrayna vətəndaşı Valentina Poltavska da Azərbaycanda keçirilən marafonlarda ikinci dəfədir iştirak edib və bu il keçirilən Bakı marafonunun ikincisi olub. O, jurnalistlərə müsahibəsində Gəncə marafonu barədə məlumatı dostundan aldığını bildirib və iştirakçıların sayının bu qədər çox olmasının onun üçün gözlənilməz olduğunu deyib. V.Poltavska Gəncə sakinlərinin qonaqları xoş qarşılamasından və marafonun təşkilatçılığından məmnun qaldığını ifadə edib.

"Gəncə Marafonu-2017" Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi (RİİB) və Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə təşkil edilib. Marafonun eksklüziv tərəfdaşı "Azercell Telekom" şirkəti olub. Layihənin icrasını isə Sport Marketing Group (SMG) şirkəti həyata keçirib. Marafona 16 yaşdan yuxarı şəxslər əvvəlcədən qeydiyyatdan keçərək qoşulublar. Qeydiyyat avqustun 14-dən sentyabrın 17-dək Gəncə, Bakı, Şəki şəhərlərində, Şəmkir, Yevlax və Tərtər rayonlarında aparılıb. Böl-

# Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Gəncə Marafonu - 2017" keçirilib







gədə keçirilən ilk marafonun xərclərini Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi ödədiyindən fiziki şəxslər və korporativ iştirakçılar heç bir ödəniş etməyiblər.

Layihə regionlarda idmanın inkişafına dəstək, sağlam həyat tərzini, eləcə də Azərbaycanın ayrı-ayrı bölgələrində müxtəlif yaşda insanlar arasında xeyirxah amallar naminə həmrəylik ideyalarını təbliğ etmək məqsədi daşıyıb.

Xatırladaq ki, bu vaxtadək Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2016-cı və 2017-ci illərdə paytaxt Bakıda "Küləyə qalib gəl!" şüarı altında "Bakı Marafonu" təşkil olunub. Marafon region sakinləri tərəfindən böyük maraqla qarşılandığından yarışın Gəncədə keçirilməsi qərara alınıb. Qədim tarixə malik Gəncə regionlar arasında marafona ev sahibliyi edən ilk şəhər olub.

## Üzeyir Söyləməz: Marafon çox yüksək səviyyədə təşkil edilmişdi



Heydər Əliyev Fondunun təşəbbüsü ilə "İradənlə tarix yaz", "Marafonda bizimlə ol" şüarları altında keçirilən "Gəncə marafonu-2017"nin qalibi məlum olub. AZƏRTAC xəbər verir ki, marafonda kişilər arasında birinci yerə Türkiyə vətəndaşı Üzeyir Söyləməz çıxıb.

Jurnalistlərə müsahibəsində Gəncədə belə bir yarışda qalib gəlməyin qürurverici olduğunu bildirən Üzeyir Söyləməz marafonun yüksək səviyyədə təşkil edildiyini vurğulayıb. Bundan əvvəl "Bakı marafonu"nda iştirak etdiyini, ikinci yerə çıxdığını deyən Ü.Söyləməz Azərbaycan xalqının qonaqpərvərliyini, azarkeşlərin idmançılara verdiyi dəstəyi çox yüksək qiymətləndirib.

Türkiyəli idmançı deyib: "Uzun illərdir qaçışla məşğulam və müxtəlif yarışlarda iştirak edirəm. Bu yarışa yaxşı hazırlaşmışdım. Ümid edirəm ki, "Gəncə marafonu" gələcəkdə daha çox iştirakçını əhatə edəcək. Türkiyəni təmsil edərək qardaş ölkədə bu marafona qatılmaq və qalib gəlmək mənim üçün çox qürurvericidi. Havanın isti olmasına baxmayaraq, heç bir çətinlik hiss etmədim. Çünki marafon çox yüksək səviyyədə təşkil edilmişdi. Finiş xəttinə yaxınlaşdıqda hər kəsin alqışları ilə qarşılandım. Bu cür səmimi və mehriban tamaşaçıları hər ölkədə görmək olmur. Bu gündən Gəncə mənə qalibiyyət bəxş edən, çoxlu dostlar qazandıran, eləcə də xatirələrimdə daim yaşayacaq əziz bir şəhərə çevrildi".

## Lyu Cun Cey: Gəncə marafonu idman yarışından daha çox xalqların qardaşlıq bayramına bənzəyir




"Gəncə marafonu-2017"nin iştirakçısı oldum. Marafona Çindən, əməkdaşı olduğum "HUAWEI" şirkəti tərəfindən qatılmışam. Bundan əvvəl ölkənizdə Bakı və Qəbələdə olmuşam. İstər əvvəl olduğum şəhərlər, istərsə də Gəncə haqqında təəssüratlarım yüksəkdir. Bu sözləri AZƏRTAC-a "Gəncə marafonu-2017"nin çinli iştirakçısı Lyu Cun Cey bildirib. "Azərbaycan yüksək mədəniyyətə, bəşəri dəyərlərə sahib ölkədir. Burada idmana dövlət səviyyəsində yüksək diqqət və qayğı göstərilir. Bilirəm ki, bu vaxta qədər belə bir marafon 2 dəfə Bakı şəhərində keçirilib. Gəncə marafonu da yüksək səviyyədə təşkil olunub. Bu marafon idman yarışından daha çox, millətlərin və xalqların dostluq, qardaşlıq bayramına bənzəyir. Ölkənizdə olduğuma və bu cür marafonda iştirak etdiyimə görə özümü xoşbəxt sanıram", - deyə Lyu Cun Cey qeyd edib.

## Volentina Poltavska: Çox şadam ki, Gəncədə keçirilən ilk marafonda birinci oldum



Çox şadam ki, Gəncə şəhərində ilk dəfə keçirilən marafonda birinci oldum. AZƏRTAC xəbər verir ki, bunu Heydər Əliyev Fondunun təşəbbüsü ilə "İradənlə tarix yaz", "Marafonda bizimlə ol" şüarı altında keçirilən "Gəncə marafonu-2017"də qadınlar arasında finiş xəttinə birinci çatan Ukrayna vətəndaşı Volentina Poltavska deyib.

V.Poltavska jurnalistlərə müsahibəsində bildirib: "Gəncə marafonu-2017"dən əvvəl bir neçə yarışda iştirak etmişəm. Lakin Gəncədə qalib gəlməyim məni hədsiz sevindirdi. Ətrafdakı insanların alqışları məni daha da ruhlandırdı. Marşrut mürəkkəb olsa da, ətrafda gördüyüm hər şey məni finişə birinci çatmağa səsləyirdi. Marafon çox gözəl keçdi. Yarışın təşkilatçılığı yüksək səviyyədə idi. Gələcəkdə yenə də marafon təşkil edilərsə, məmnuniyyətlə iştirak edəcəyəm".

## Mədət Quliyev: "Belə tədbirlər yalnız idman yarışı deyil, həm də böyük həmrəylik bayramıdır"

Bu gün Prezident İlham Əliyev tərəfindən Azərbaycanda uğurlu siyasət həyata keçirilir. Bunun nəticəsidir ki, ölkəmiz son illərdə yüksək tərəqqiyə nail olub. Görülən işlər Azərbaycanı dünyada tanıdıb. Dövlət başçısı tərəfindən aparılan bu siyasət xalqımızı həmrəyliyə, insanları isə sağlam həyata çağırır. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev deyib.



Mədət Quliyev əlavə edib ki, belə möhtəşəm tədbirlərdən biri də "Gəncə Marafonu-2017"dir. İlk dəfə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən Bakı marafonu birinci gündən insanlar tərəfindən sevilib və böyük coşqu ilə qarşılanıb. Belə tədbirlər yalnız idman yarışı deyil, həm də böyük həmrəylik bayramıdır. Bakı şəhərindən sonra marafonun Gəncədə də böyük coşqu ilə keçirilməsi sübut edir ki, xalqımız həmişə olduğu kimi Prezident İlham Əliyevi dəstəkləyir və onunla həmrəy olduğunu bildirir.

## SSRİ Xalq Artisti Zurab Sotkilava vəfat edib

Məşhur opera müğənnisi, SSRİ Xalq Artisti Zurab Sotkilava Moskvada 80 yaşında vəfat edib. Bu barədə Rusiya Böyük Teatrının baş direktoru Vladimir Urin məlumat verib. 2015-ci ildə Zurab Sotkilavaya mədəaltı vəzinin xərçəngi diaqnozu qoyulub. Almaniyada əməliyyatdan və Rusiyada müalicədən sonra o, yenidən pedaqoji fəaliyyətini davam etdirib. Z.Sotkilava 1937-ci ildə Suxumidə anadan olub. Tbilisi konservatoriyasını bitirdikdən sonra 1973-cü ildən Moskva Böyük teatrında çalışıb.

# Azərbaycanda genişmiqyaslı təlimlər başlayıb

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, sentyabrın 18-dən müxtəlif qoşun növlərinin və qisimlərinin iştirakı ilə genişmiqyaslı təlimlər başlayıb.***



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərə 15 min nəfərədək şəxsi heyət, 150-dən artıq tank və zirehli texnika, 120-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 20 ədəd müxtəlif təyinatlı döyüş aviasiyası, eləcə də yeni növ radioelektron kəşfiyyat vasitələri və pilotsuz uçuş aparatları cəlb olunub. Təlimlər sentyabrın 22-dək davam edəcək.





# "TurAz Qartalı - 2017" təlimlərinin açılış mərasimi olub

***Sentyabrın 18-də "TurAz Qartalı - 2017" birgə taktiki-uçuş təlimlərinin açılış mərasimi keçirilib. Mərasimdə Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov, nazirliyin rəhbər heyəti, eləcə də Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral iştirak ediblər. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə hər iki dövlətin himnləri səsləndirilib, ümummilli lider Heydər Əliyevin və ölkələrimizin müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***



Çıxışına ümummilli lider Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə başlayan nazir Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğıdan danışaraq, təlimlərin əhəmiyyətini vurğulayıb. Müdafiə naziri bunun hərbi gücümüzün daha bir nümunəsi olduğunu qeyd edərək təlimlərin hər iki ölkənin Silahlı qüvvələrinin təcrübə mübadiləsində çox vacib rol oynadığını bildirib.

Təlimlərin Azərbaycanda keçirilməsinin vacibliyini vurğulayan səfir E.Özoral bundan qürur hissi keçirdiyini bildirib. Diplomat son illər bunun artıq ənənə halını almasını xüsusi qeyd edib, təlimlərin başlanması və döyüş aviasiyasının uçuşlarının yüksək səviyyədə keçirilməsi ilə əlaqədar iştirakçılara uğurlar arzulayıb.

Sonra təlimlərin məqsədi, şəxsi heyətin hazırlığı, yerləşməsi, cəlb edilən qüvvələr, icra edilən tapşırıqlar, aviasiya vasitələrinin uçuşu və istifadəsi barədə məlumat verilib. Müdafiə naziri uçuş və texniki heyətlə görüşərək döyüş aviasiyasına baxış keçirib, onların taktiki-texniki xüsusiyyətləri və tətbiqi imkanları ilə maraqlanıb. Təlimlərin açılış mərasimi Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının geniş konsert proqramı ilə davam edib.

# Mirzə Kazımbəyin məşhur əsəri 178 il sonra dilimizə tərcümə edilib

Dünya şöhrətli alim, rus şərqşünaslığının patriarxı, Kazan və Sankt-Peterburq universitetlərinin ordinar professoru və Sankt-Peterburq Universitetində Şərq fakültəsinin ilk dekanı Mirzə Kazımbəyin məşhur "Türk-tatar dilinin ümumi qrammatikası" əsəri (1839, 1846) "Zərdabi LTD MMC" nəşriyyatında işıq üzü görüb. AZƏRTAC xəbər verir ki, Azərbaycan dilinin ilk elmi qrammatikası olan kitabın nəşrindən 178 il sonra onu rus dilindən ana dilimizə Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun nəzəri dilçilik şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, professor İdris Abbasov tərcümə edib. Üç hissə və 22 fəsildən ibarət 1000 səhifədən artıq olan bu nəhəng işin önəmi mütərcimin orijinal mətnin tərcüməsi ilə yanaşı, kitaba öz tədqiq və şərhlərini də əlavə etməsidir. Bu məqsədlə İ.Abbasov Mirzə Kazımbəydən əvvəl və onun yaşadığı dövrdə rus, fransız, ingilis, ərəb, italyan, latın, ispan, alman və digər dillərdə yazılmış fundamental əsərləri müqayisəli tədqiqata cəlb edərək sanballı tədqiqat işi aparıb.

Elmi ictimaiyyət tərəfindən maraqla qarşılanan və Azərbaycan dilçiliyində mühüm hadisə kimi qiymətləndirilən kitabın məsləhətçisi mərhum dilçi alim, akademik Tofiq Hacıyev, elmi redaktoru akademik Nizami Cəfərov, redaktorları filologiya üzrə elmlər doktoru, professor Buludxan Xəlilov və AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun müqayisəli tarixi və tipoloji dilçilik ixtisası üzrə dissertantı Elnurə Abbasovadır.

## Etibar Nəcəfov: Azərbaycanın multikulturalizm siyasəti ölkədəki milli azlıqların sosial, iqtisadi və mədəni məsələlərinin həllində mühüm rol oynayır

Xəbər verdiyimiz kimi, sentyabrın 11-də Polşanın paytaxtı Varşavada ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun insan ölçüsü üzrə öhdəliklərin yerinə yetirilməsinə həsr olunan yekun iclası öz işinə başlayıb.




AZƏRTAC xəbər verir ki, tədbirin sentyabrın 18-də keçirilən 10-cu sessiyası milli azlıqlar məsələsinə həsr olunub. Sessiyada Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin baş məsləhətçisi Etibar Nəcəfov çıxış edərək ölkədəki millətlərarası münasibətlər haqqında tədbir iştirakçılarına məlumat verib. O, ölkədə yaşayan milli azlıqların sosial, iqtisadi və mədəni məsələlərinin Azərbaycan Respublikasının multikulturalizm siyasəti çərçivəsində yüksək səviyyədə həll olunduğunu qeyd edib. Etibar Nəcəfov əsrlər boyu Azərbaycanın tolerant bir ölkə olduğunu qeyd edərək burada milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması istiqamətində dövlət tərəfindən mühüm işlərin görüldüyünü vurğulayıb. Etibar Nəcəfov konkret faktlara əsaslanaraq Azərbaycanda milli azlıqların mədəniyyət mərkəzlərinin fəaliyyət göstərməsi, onların dillərində qəzet və jurnalların dərc olunması, radio verilişlərinin aparılması, məktəblərin fəaliyyət göstərməsi, həmçinin milli azlıqların sosial-iqtisadi və mədəni məsələləri ilə məşğul olan qeyri-hökumət təşkilatlarının fəaliyyətləri haqqında tədbir iştirakçılarına məlumat verib. Qeyd edək ki, tədbir sentyabrın 22-dək davam edəcək.

## Yaponiyanın nüfuzlu "Nikkey" qəzeti Azərbaycan ilə açılacaq birbaşa reyslərin əhəmiyyətindən yazır

Yaponiyanın iqtisadi dairələrində xüsusi nüfuza malik olan "Nikkey" qəzeti bu Gündoğar ölkə ilə Azərbaycan arasında açılacaq birbaşa aviareyslərin əhəmiyyətindən bəhs edən geniş məqalə yayıb. Məqalədə qeyd edilir ki, artıq 2016-cı il yanvarın 24-dən Azərbaycanın "Silkway West Airlines" şirkəti Bakının Heydər Əliyev Beynəlxalq Aeroportundan Komatsu Hava Limanına birbaşa yük daşımalarını həyata keçirir. Vurğulanır ki, bu reyslər iki dost ölkə arasında iqtisadi və ticari əməkdaşlığın inkişafına xidmət edir.



Cari ilin iyulunda Bakıda Azərbaycan Dövlət Mülki Aviasiya Administrasiyası və Yaponiya Torpaq, İnfrastruktur və Nəqliyyat Nazirliyinin Mülki Aviasiya Bürosu arasında əməkdaşlıq haqqında sazişin imzalanması məqalədə xüsusi qeyd edilir. Bildirilir ki, sazişə əsasən yaxın zamanlarda Azərbaycandan yükdaşıma təyyarələri Yaponiyanın Tokio şəhərinin "Narita" və "Haneda" beynəlxalq hava limanları istisna olmaqla, istənilən aeroporta yükdaşıma reyslərini həyata keçirə biləcək. Bundan əlavə, birbaşa sərnişin təyyarələri Tokio şəhərinin "Haneda" beynəlxalq hava limanı istisna olmaqla, istənilən hava limanına reyslərin uçuşuna başlayacaq.

Yeni açılacaq aviareyslərin iki ölkə arasında iqtisadi və ticari əməkdaşlığın inkişafına mühüm təkan verməsi ilə yanaşı, həm də dost xalqlarımız arasında əlaqələri daha da möhkəmləndirəcəyi, qarşılıqlı turist səfərlərinin artmasına böyük təsir göstərəcəyi məqalədə xüsusi qeyd edilir.

# Modernləşən Azərbaycan təhsilinin uğurları

***Elm, təhsil və qlobal düşüncə Azərbaycan təhsilinin dünyaya inteqrasiyasını daha da sürətləndirir. Ölkəmizdə iqtisadi, mədəni və sosial sahələrdə aparılan islahatlar təhsilin səviyyəsinin keyfiyyət baxımından yüksəlməsinə müsbət təsirini göstərir.***



Ümummilli Lider Heydər Əliyevin milli təhsil quruculuğu strategiyasını uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyev ölkənin tərəqqi və inkişafına zəmin yaradıb. Prezident tərəfindən təhsilə böyük önəm verilməsi, yeni proqram və layihələrin, təhsil islahatlarının həyata keçirilməsi Azərbaycan təhsilinin dünya standartları səviyyəsində qurulmasına gətirib çıxarıb. Dünyada mövcud olan ən qabaqcıl təcrübə Azərbaycanda tətbiq edilir. Azərbaycan təhsil sisteminin modernləşdirilməsi istiqamətində məqsədyönlü islahatlar aparılır. Həyata keçirilən dövlət proqramları çərçivəsində ölkənin bütün regionlarında ümumi təhsilin infrastrukturu əhəmiyyətli şəkildə yenilənib. Ölkədə təhsilin müasir tələblərə cavab verən normativ-hüquqi bazası yaradılıb.

**"ELƏ ETMƏLİYİK Kİ, BÜTÜN UŞAQLAR SAVADLI, BİLİKLİ OLSUNLAR, GƏLƏCƏKDƏ ÖZLƏRİ ÜÇÜN GÖZƏL HƏYAT QURA BİLSİNLƏR, DÖVLƏTİMİZ ÜÇÜN DƏYƏRLİ VƏTƏNDAŞLAR OLSUNLAR"**

Bu gün Azərbaycanın hər bir regionunda müasir standartlara cavab verən məktəblər inşa olunur, təhsil müəssisələrində təhsilin keyfiyyətinin artırılması üçün mütəmadi işlər görülür. Yeni məktəb binalarının tikilməsi, bərpası müasir təhsilin inkişafına təkan verir. Bu gün təhsilə qayğı varsa, demək, Azərbaycan inkişafdadır. Çünki həyat təhsildən başlayır. "Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar", -deyən Cənab Prezident təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində islahatlar aparıldığını diqqətə çəkib. Dövlət başçısı Azərbaycanın uğurla inkişaf edən ölkə olduğunu vurğulayaraq, bu inkişafın dayanıqlı olması üçün gənclərin bilikli olmalısını diqqətə çatdırıb. Əksər inkişaf etmiş ölkələrdə təhsil, texnologiya və elm inkişaf edir.

Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafında yaxından iştirak etmələrini təmin etmək məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncama uyğun olaraq, hazırlanmış "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" istedadlı gənclərin xaricdə təhsil almalarına yollar açmış oldu. Hazırda uğurla həyata keçirilən Dövlət Proqramı əsasında Azərbaycan gəncləri Avropa ölkələrinin əksəriyyətində təhsil alırlar. Azərbaycan gəncləri müxtəlif təhsilmübadilə proqramları çərçivəsində ABŞ, Böyük Britaniya, Almaniya, Fransa və başqa ölkələrdə də elmi biliklərə yiyələnirlər. Gənclərin xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil almaları və məzun olduqdan sonra Azərbaycanda işlə təmin olunmaları prosesinin tənzimlənməsi və bu sahədə vahid sistemin yaradılması məqsədilə normativ-hüquqi baza təkmilləşdirilib. Gənclərin xarici ölkə ali məktəblərində təhsil almalarının təşkili prosesi dövlət, ictimai və özəl təşkilatların qarşılıqlı əlaqələri prinsipi üzərində qurulur. Onu da bildirək ki, Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Macarıstan İnsan Resursları Nazirliyi arasında imzalanmış 2015-2017-ci illər üzrə İş Proqramına uyğun olaraq, azərbaycanlı tələbələr Macarıstanda da təhsil almaq imkanı qazanıblar. 200 nəfər azərbaycanlı Macarıstan ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıb.

Təhsil sahəsində həyata keçirilən tədbirlər öz nəticəsini verir. Qəbul imtahanında yüksək bal toplayan gənclərin hazırlıq səviyyəsi bunun aydın göstəricisidir. İlk dəfə 2007-ci ildə 3 gənc ali məktəblərə qəbul imtahanlarında 700 bal toplamışdısa, indi bu rəqəm 82-dir. Bu təhsil sahəsində əldə edilən uğurdur. Qeyd edək ki. 2017-2018-ci tədris ili üçün I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarında 70.797 nəfər iştirak edib. Rəsmi məlumata istinadən, bidirək ki, ötən illərlə müqayisədə qəbul imtahanlarında iştirak edən abituriyentlərin sayı azalsa da, 200-dən artıq bal toplayan abituriyentlərin mütləq sayı artıb. Belə ki, bu il qəbul imtahanlarında 200-dən yuxarı bal toplayanların sayı cari ildə 35.790 nəfər ( 50,6) faiz təşkil edib ki, bu da ötən illə müqayisədə 6,7 faiz, 2015-ci ildəki göstəricidən 10,6 faiz, 2014-cü ildəki göstəricidən 11,3 faiz artıqdır. 2016-cı ildə 200-dən yuxarı bal toplayanların sayı 34.475 nəfər, 2015-ci ildə 33.198 nəfər, 2014-cü ildə isə 32.159 nəfər təşkil edib.

Bu il qəbul imtahanlarında 2464 nəfər 600 baldan yuxarı nəticə göstərib. Ötən il bu rəqəm 2281, 2015-ci ildə 2094, 2014-cü ildə isə 1725 nəfər təşkil edib.

Müasir dövrümüzdə təhsilin keyfiyyəti və əhatəliliyi əsas amillərdən birinə çevrilib. Təhsilin keyfiyyətinə və əhatəliliyinə qoyulan yeni tələblər təhsil sistemi anlayışına baxışı da yeniləmişdir. Bütün bu reallıqlar göstərir ki, müstəqil Azərbaycan demokratik dövlət kimi inkişafını elm və təhsildən kənarda görmür, bu sahələrin inkişafına daim xüsusi diqqət yetirir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Astarı üzündən qalın radikal həyasızlığı

**RƏFİQƏ**

Yenə də dağıdıcı müxalifət köhnə ampluasındadır. 24 ilə yaxındır özlərini müxalifət adlandırsalar da, biabırçı uğursuzluqdan başqa, heç bir şey əldə edə bilməyiblər. Bu gün dağıdıcı müxalifətdən yazmaq istəməsəm də, onların həyasızlığını görəndə, fikrimi dəyişdim. Çünki dağıdıcı müxalifətin həyasızlığı, necə deyərlər, "astarı üzündən qalın" olduğu üçün yarandığı gündən cüzi uğur əldə edə bilməyiblər. Bəlli olan reallıq isə budur ki, dağıdıcı müxalifət iqtidara rəqib və alternativ ola bilməyib - yəni nə ağıl, nə siyasi resurs, nə də səmimiyyət baxımından. Ölkəmizdə keçirilən və demokratik prinsiplərə söykənən bütün seçkilərdə olduğu kimi, 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə bağlı dağıdıcı müxalifətin yenə də ünvansız bir yol boyunca, yəni "birlik" məsələsini gündəmə gətirməsi yuxarıda dediyim kimi, həyasızlığın son həddidir. Bu, o müxalifətdir ki, dəfələrlə "birləşib" sonradan isə ən qatı düşmənlərə çevrilməklə bir-birilərini qırıb-çatıblar. Həyasızlığın son dərəcəsi olan AXCP sədri Əli Kərimli və onun siyasi təlxəyi, "Milli Şura"nın sözdə sədri Cəmil Həsənli qaranlıq siyasi dairələrin qulları-nökərləridirlər, xarici orqanlara kompromatlar ötürməklə məşğul olan və milli-dövlətçilik maraqlarını satanlardır.

## Əli Kərimli - tarixin çevrilmiş səhifəsi

Bir də bütün bunlardan sonra, "mən də varam"- demələri, bax, həyasızlığın 100 faizlik həddinədir. Məğlubiyyət dağıdıcı müxalifətin alın yazısıdır. Dağıdıcı müxalifətin alın yazısı olan məğlubiyyət - onların qabiliyyətinə, istəyinə, səmimiyyətinə, gücünə tam adekvat olan bir yekundur. Bu baxımdan, məhz AXCP sədri Ə.Kərimli kimi adamların o düşüncəsiz beynində hələ də 1989-cu ildəki meydan təfəkkürü həkk olunub ki, illərdir üz-üzə qaldığı uğursuzluqlarla bir daha ləyaqətsiz olduğunu sübut edir və AXCP sədri hələ də anlamır ki, o, artıq tarixin çevrilmiş səhifəsidir. Bir də siyasi mədəniyyətin formalaşması üçün siyasətçidə siyasi ləyaqətin olması ən başlıca tələbdir. Siyasi ləyaqət anlayışının isə AXCP sədrinə aid etməyin özü siyasi mədəniyyətsizlik olardı. Bir-birilərini "əqidədaş" sayan bələləri çox asan şəkildə öz "dostlarının" şərəf və ləyaqətinə, mənliyinə və siyasi davranışlarına dil və əl uzada bilər. Bu gün sosial şəbəkələrdə ölkəsini, dövlətini və millətini hansısa xarici maraqlı qüvvələrə satan Ə.Kərimli kimilər necə siyasi mədəniyyətdən danışa bilər? Çünki onun üçün dəyər adlı hər hansı bir sistem qalmayıb. Ə.Kərimli yaxşı anlayır ki, savadsızlığını tam mənada əks etdirən dırnaqarası müsahibələri onu düşərgədə və ictimai rəydə yetərincə rüsvay edib və xalq amili Ə.Kərimlini çoxdan dəfn edib. Bəli, bu, reallıqdır.

# Dağlıq Qarabağ münaqişəsi həll olunur

## Arzu Nağıyev: *"Münaqişə həll edildikdən sonra digər məsələlərə qayıtmaq mümkündür "*

***Son vaxtlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllilə bağlı beynəlxalq təşkilatların və ayrı-ayrı ölkələrin rəsmi şəxsləri müxtəlif xoşməramlı açıqlamalarla çıxışlar edir, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını qeyd-şərtsiz boşaltması çağırışları səslənirlər.***

Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirib ki, Qərb Rusiyanın təkliflərini nəzərə alsa idi, Dnestiryanı və Dağlıq Qarabağ problemi çoxdan həll olunmuşdu. Lavrovun bu açıqlaması münaqişənin həllində Rusiyanın maraqlı olduğu anlamını yardır. Politoloq Arzu Nağıyev isə "Səs" qəzetinə açıqlamasında Rusiyanın xarici işlər naziri S.Lavrovun açıqlamasının arxasında iki məqsədin dayandığını bildirdi: "Birincisi, məhz münaqişənin həll edilməsində əsas açar fiqurun, məhz Rusiya olduğunu bildirir, ikinci məqamda isə, cavabdehliyi öz üzərindən atır. Yəni əgər münaqişənin həll edilməsində ATƏT-in Minsk Qrupunun həmsədri kimi, Rusiya da təmsil edilirsə, bu bəyanat kökündən səhvdir. Lavrovun fikrincə, Qərb Avroatlantika və Avrasiya məkanında eyni bir təhlükəsizlik zonası yaratmalıdır. Yəni belə çıxır ki, ya Azərbaycan Avrasiya məkanına daxil olmalıdır, ya da münaqişə həll edilərsə, Qərb Rusiyaya qarşı daha da aqressiv addımlar ata bilər, Rusiyanın sərhədlərinə yaxınlaşa bilər və s. Bütün bunlar, təbii ki, bir bəhanədir. Belə bir mövqe ancaq və ancaq ermənilərı razı sala bilər. Azərbaycanın əsas tələbi ərazi bütövlüyünü bərpa etmək üçün, ilk növbədə, işğalçı ordunun Dağlıq Qarabağ ərazisindən çıxmasıdır. Münaqişə həll edildikdən sonra, digər məsələlərə qayıtmaq mümkündür".




Politoloqun sözlərinə görə, Lavrovun bəyanatından sonra ermənilər yenə də Helsinki razılaşması və digər beynəlxalq sənədləri misal gətirməyə başlayıblar və bununla da danışıqlar prosesini inkar etməyə və status-kvonu saxlamağa çalışırlar: "Burada maraqlı bir məqam da Vaşinqtonun Minsk Qrupunda öz nümayəndəsini ixtisara salmaq və onu Avrasiya və Avropa üzrə büronun rəhbərinin köməkçisi ilə əvəz etmək istəyidir. Bu isə Rusiyanı və Ermənistanı narahat etməyə bilməz. Çünki artıq münaqişənin həllinin miqyası dəyişə bilər. Baxmayaraq ki, Rusiya və ABŞ arasında ciddi narazılıqlar mövcuddur, hələ ki, bu məsələ danışıqdan o yana keçməyib. Hələ ki, ATƏT-in Minsk Qrupu fəaliyyətini dondurmayıb və müvafiq işlər görür. Qərb də gözəl anlayır ki, postsovet məkanında bütün münaqişə ocaqları, məhz SSRİ tərəfindən yaradılıb və onun varis kimi Rusiya birbaşa cavabdehlik daşıyır".

***GÜLYANƏ***

# Gənclərin gələcəyi üçün növbəti güclü zəmin yaranır

*Azərbaycan gəncliyi özünə inam prinsipləri ruhunda inkişaf edir, öz dövlətinin göstərdiyi diqqət və qayğının etimadını hər sahədə doğruldur*

***Bir zamanlar istedadlı Azərbaycan gənci öz potensialını üzə çıxarmaq üçün şəraitin olmamasından haqlı olaraq gileylənirdisə, hazırda gənclərimiz mədəniyyət, incəsənət, idman, elm, təhsil, texnologiya və başqa sahələrdə öz istedadlarını və qazandıqları uğurları layiqincə nümayiş etdirirlər. Son illər Prezident İlham Əliyevin birbaşa qərarları ilə yaradılan çoxsaylı gənclər mərkəzlərinin və evlərinin açılışı, ölkəmizdə dövlət tərəfindən lazımi şəraitin yaradılması, hər bir perspektivli Azərbaycan gəncinin yetişməsi üçün zəmin yaradır.***



Ulu Öndər Heydər Əliyevin Azərbaycanın ölkə hüdudlarından kənarda tanınması və təbliğinə öz töhfəsini verəcək gənclərimizi xarici ölkələrin ali təhsil müəssisələrinə göndərməsi, dünyanın ən tanınmış ali məktəblərində təhsil almalarına dövlət dəstəyi kimi ənənələri bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət Neft Fondunun vəsaitləri hesabına bu gün xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələr, gələcəkdə Azərbaycanın ictimai həyatına, iqtisadiyyatının qüdrətlənməsinə, nüfuzunun yüksəlməsinə öz layiqli töhfələrini verəcək gənclərdir. Sıralarında tanınmış ictimai - siyasi xadimlər, görkəmli alimlər olan bu gənclər, təhsil aldıqları, işlədikləri, çalışdıqları ölkələrdə diaspor təşkilatlarının fəal üzvləri kimi Azərbaycan həqiqətlərinin dünya xalqlarına çatdırılması istiqamətində səy və bacarıqlarını əsirgəmir, dövlətin onlara göstərdiyi diqqəti, əməli fəaliyyətləri ilə və sağlam mövqe ilə təsdiqləyirlər. Seçkilərdə, ölkənin ictimai-siyasi həyatında, demokratiyanın inkişafında daha fəal iştirak etməsi, idarəetmə orqanlarında iştirak etmək istəkləri, fəallığı və sağlam rəqabətə əsaslanan siyasi mübarizədə gənclərin rolunun danılmaz olduğunu göstərir. İstər ölkə daxilində, istərsə də ölkə hüdudlarından kənarda keçirilən bütün tədbirlərdə, idman yarışlarında və olimpiadalarda Azərbaycan gəncləri fərqlənirlər.

Gənclərimizin dünyanın ayrı-ayrı ölkələrində keçirilən müxtəlif yarışlar və müsabiqələrdən qələbə müjdələri Azərbaycanın dünya birliyinə inteqrasiyasının məntiqi nəticəsidir. BMT, Avropa Şurası, İƏT, GUAM, MDB və digər beynəlxalq təşkilatlarla əlaqə yaradan gənclər təşkilatları, intellektual Azərbaycan gəncliyinin formalaşmasından xəbər verir. Gənclər siyasətinin əsl mahiyyətini, gənc nəslin cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər, həyata keçirilən tədbirlər təşkil edir və bu siyasət, gənclərin hərtərəfli inkişafı ilə, ölkənin sosial-iqtisadi, elmi və mədəni tərəqqisi ilə sıx əlaqədədir, onun qlobal rəqabətə davamlılığının və milli təhlükəsizliyinin vacib şərtlərindəndir.

Ümummilli Lider Heydər Əliyevin gənclərə göstərdiyi xüsusi diqqət və qayğı, Azərbaycan dövləti üçün qoyub getdiyi irs bu gün Onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilir və dövlət başçısı hər zaman gəncləri maraqlandıran, onları narahat edən problemlərlə maraqlanır, görüşlər keçirir və bu istiqamətdə öz tövsiyə və tapşırıqlarını verir. Azərbaycan dövlətinin gənclər siyasətindən danışarkən, Prezident İlham Əliyev tərəfindən 2005-ci ildə imzalanmış "Azərbaycan Gəncliyi 2005-2009-cu illərdə" və 2011-ci ildə imzalanmış "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" dövlət proqramları xüsusi qeyd edilməlidir. Həmin proqramlar dövlət başçısının Azərbaycan gəncliyinə münasibətinin birbaşa təzahürüdür.

Prezident İlham Əliyevin "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı"nın təsdiq edilməsi barədə imzaladığı son Sərəncam da Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirmək ideyalarını ön plana çəkir. 2017-2021-ci illəri əhatə edən, 11 fəsildən, 104 bənddən ibarət və sayca artıq 3-cü olan bu proqramda müasir dövrün tələblərinə cavab verən, eyni zamanda, gənclərin inkişaf strategiyasından irəli gələn hədəflər öz əksini tapıb.

Bu gün Azərbaycanın, bütün sahələrdə olduğu kimi, gənclərlə iş sahəsində də regionun ən qabaqcıl ölkəsi olduğu bir aksiomdur. Ermənistanın taleyin ümidinə buraxılmış, sosial problemlər girdabında çapalayan, terrorizmə və separatizmə yuvarlanmış gəncliyindən fərqli olaraq, Azərbaycan gəncliyi özünə inam prinsipləri ruhunda inkişaf edir, öz dövlətinin göstərdiyi diqqət və qayğının etimadını hər sahədə doğruldur.

***İnam Hacıyev***

# Suraxanı rayonu Heydər Əliyev Mərkəzində əməkdaşlıq müqaviləsi imzalanıb



Suraxanı rayonu Heydər Əliyev Mərkəzi, AMEA-nın Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu və Suraxanı rayon icra hakimiyyəti arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Tərəflər bu barədə razılığa Azərbaycan xalqının Ümummilli Lideri, Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Heydər Əliyevin neft strategiyası" mövzusunda Suraxanı rayonu Heydər Əliyev Mərkəzində keçirilmiş konfransda razılığa gəliblər. Razılaşmaya əsasən, AMEA-nın Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu rayon məktəblərinin 10-cu sinfində təhsil alan və gələcəkdə I qrup ixtisaslarını seçən, xüsusi istedadı ilə fərqlənən və aztəminatlı ailələrdən olan 15 nəfər şagirdin 2017-ci il sentyabrın 15-dən 2 il müddətində institutun alimləri tərəfindən kimya fənnindən hazırlaşdırılacaqlar.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Liderin Heydər Əliyev parkında ucalan abidəsini ziyarət ediblər. Əməkdaşlıq müqaviləsinin imzalanma mərasimində çıxış edən Suraxanı rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təhsilə diqqət və qayğısından danışıb. İ. Abbasov qeyd edib ki, son 14 ildə Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrində olduğu kimi, təhsil sistemində də çox ciddi irəliləyişlər və uğurlar əldə olunub: "Bu illər ərzində yaradılmış baza Azərbaycan təhsilinin inkişafına uzun müddət xidmət edəcək".

Rayon rəhbəri AMEA-nın Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasovun rayon məktəblərinin 10-cu sinfində təhsil alan və gələcəkdə I qrup ixtisaslarını seçən, xüsusi istedadı ilə fərqlənən və aztəminatlı ailələrdən olan 15 nəfər şagirdin 2017-ci il sentyabrın 15-dən 2 il müddətində institutun alimləri tərəfindən kimya fənnindən hazırlaşdırılması təklifini və əməkdaşlıq müqaviləsinin imzalanmasını çox yüksək qiymətləndirib.

Tədbirdə çıxış edən AMEA-nın Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasov şagirdlərə və kimya müəllimlərinə öz tövsiyələrini verib.

***ZÜMRÜD***



## ƏLİ KƏRİMLİNİN "PEYSƏRİ"

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***AXCP və "Milli Şura"nın yenidən mitinq həvəsinə düşmələri feysbukda yaman-ca müzakirə obyektinə çevrilib. Məsələ ondadır ki, AXCP sədri Əli Kərimli sosial şəbəkədəki zombilərinə belə bir tapşırıq verib ki, aksiyaya adam cəlb etmək üçün söyüşlər qoyulsun. Bunlar da, eləmə tənbəllik, "Mitinqə gəlməyən peysərdir" (?!-R.) şüarını ortaya ataraq, ictimai rəyə qarşı aşkar təhqir-yəsizliyə və həqarətlərə yol veriblər. Demək, belə çıxır ki, kimsə bunların pozuculuğa xidmət edəcək mitinqlərinə getməyəcəksə, həmin söyüş, bilavasitə həmin şəxslərə aid ediləcək. Əslində, burada Ə.Kərimli "ştrixlərinin" olması şübhəsizdir. Çünki bu "adamın" əli istədiyinə çatmayanda, çıxış yolunu söyüş söyməkdə və söydürməkdə görür. Hələ AXCP sıralarında anti-elçibəyçi "yurd" qruplaşmasını formalaşdırarkən Ə.Kərimli təsir altında saxaladığı mətbu orqanlarda liderinə qarşı ən iyrənc kampaniyalar aparırdı ki, buna da səbəb partiya rəhbərliyini ələ keçirmək idi...***

### "Peysər" nədir?

Bu "adamın" keçirmək istədiyi mitinqinə qatılmayanları, yaxud da qatılmaq istəməyənləri bəri başdan "peysər" adlandırmasından təəccüblənilәsi də heç nə yoxdur. Belə də ki, əgər nəzərə alarsaq, bu günə qədər AXCP və "Milli Şura" sıralarını tərk edənlər, bilavasitə Ə.Kərimli barədə hansı ifadələri səsləndiriblər və Ə.Kərimli də həmin ifadələri həzm edib, bu zaman "peysər" ifadəsinin daha çox onun özünə yaraşdığını deyə bilərik.

Yeri gəlmişkən, "peysər" sözü tibbi nöqteyi-nəzərdən, eləcə də, rəsmi olaraq pis söz deyil. Yəni "peysər" bir insanın bədən quruluşunun tərkib hissəsidir. Daha dəqiqi isə, insanların boynunun ardına el arasında "peysər" deyirlər. Sadəcə, milli leksikonumuzda bu adın pis tərəfi çıxıb. Kim ki, söz götürür, elədiyi səhv hərəkəti görməzlikdən gəlir, eyni zamanda, kimsə kimi isə acı sözlə acılayır və söz deyilən adam da həmn sözü udursa, ona dərhal "peysər" damğası yapışdırılır.

### "Peysərləri" çox, yerləri də geniş...

İndi, Kərimli də öz zombilərinə bərk-bərk tapşırıq verib ki, aksiyaya adam cəlb etmək üçün həmin variantdan istifadə etsinlər. Amma istər Ə.Kərimli, istərsə də onun müavinləri və zombi dəstələri özləri də bilmədən "peysərlər"in ta yekəsinə çevriliblər. Vaxtilə "yurd" şefinin yanında olmuş, sonradan nə qədər səhv yollda olduqlarını anladıqdan sonra dabanlaına tüpürüb AXCP-dən uzaqlaşmış insanlar, həmçinin, ona antipatiya hissləri olan adamlar həmin "peysər" ifadəsinə görə Ə.Kərimlini bəşqat ağır ifadələrlə "yağlamaqdadırlar". Çünki onlar bilirlər ki, "Milli Şura"nın aksiyasına qatılmayacaqlar. Ona görə də, AXCP sədrindən fərqli olaraq, onun mitinqə qatılmayacaq adamlara qarşı həqarətlərinə birə-beş cavab verirlər. Ə.Kərimli isə həmin həqarətləri, necə deyərlər, atır "peysərinə". Nə qədər də olmasa, buna alışıqdır. Hətta Ə.Kərimlinin "peysəri" son 24-25 ildə o qədər ağır ifadələr götürüb ki, artıq həmin ifadələr "peysərdən" alına-sifətinə transfer olunur. Uzağı, yanında kuklalıq edən C.Həsənli də Ə.Kərimliyə ağır gəlməsin deyə, həmin ifadələrdən öz boynu ardına götürür. Bunlara nə var ki, "peysərləri" çox, yerləri də geniş...

# Lapşinsayağı, yaxud ermənisayağı həyasızlıq - ortada heç bir fərq yoxdur

## Elçin Mirzəbəyli: "Lapşin bizim qanunlarımız qarşısında acizlik göstərib, əfv olunduqdan sonra isə şeytan xislətini ortaya qoyub"

***İşğal altındakı Dağlıq Qarabağ ərazilərimizə qanunsuz səfər etdiyinə görə, Azərbaycan qanunları əsasında həbs edilən, lakin sonradan Prezident İlham Əliyevin tövsiyəsi ilə azadlığa buraxılan blogger Aleksanr Lapşin əfv olunduqdan dərhal sonra yenidən ölkəmiz və xalqımız əleyhinə fikirlər səsləndirib.***



O, "fecebook" səhifəsində aşkar ermənisayaq həyasızlığa yol verərək, Qarabağ torpaqlarının guya Azərbaycana məxsus olmadığını yazıb, o cümlədən, iddia edib ki, guya Azərbaycan xalqı onun bu əraziləri ölkənin tərkib hissəsi kimi tanıması üçün "qarşısında diz çöküb". O cümlədən, dövlətimizə və millətimizə qarşı ironik yanaşmalar edən ermənipərəst blogger ölkə rəhbərliyimizin humanist davranışı qarşısında əsl sifətini göstərib.

### "Azərbaycan hakimiyyəti öz humanist simasını və dövlətlərarası münasibətlərə, hüquqi amillərə nə qədər sayğıyla yanaşdığını, məhz Lapşini azad etməsi ilə nümayiş etdirdi"

Məsələ ilə bağlı saytımıza açıqlama verən politoloq Elçin Mirzəbəyli A.Lapşinin sözügedən qeyri-insani davranışına münasibətini açıqlayaraq, bildirib ki, əslində, Azərbaycan hakimiyyəti öz humanist simasını və dövlətlərarası münasibətlərə, hüquqi amillərə nə qədər sayğıyla yanaşdığını, məhz Lapşini azad etməsi ilə nümayiş etdirdi. SİTAT: "Lapşinə gəldikdə isə, bəlli idi ki, o, daha öncədən Ermənistan hökuməti və xüsusi xidmət orqanlarının adamı olub və mövcud davranışı ilə bir daha bunu açıq şəkildə etiraf etdi".

### "Lapşin naqis, xaraktersiz və şəxsiyyətsiz bir şəxsdir"

Politoloqa görə, A.Lapşin simasızın ən aşkar nümunəsidir: "İnsani davranışa gəldikdə isə, Lapşinin Bakıda bir, azad olunduqdan sonra isə fərqli bəyanatlar səsləndirməsi əxlaqsızlığın və simasızlığın ən böyük və ən bariz nümunəsidir. Əslində, onun bu davranışları naqis bir şəxs olduğunu göstərir. Sözün doğrusu, Lapşinin bundan öncə də, yeni həbs olunaraq, Azərbaycana gətirilməmişdən qabaq açıqlamaları və yazıları ilə tanış olanda, bu insanın nə qədər xaraktersiz, nə qədər şəxsiyyətsiz biri olduğunu təsbit etmişdik".

### "Düşməndən isə fərqli mövqe gözləməyə dəyməz"

"Təbii ki, Azərbaycan hökumətinin, eləcə də, dövlət başçısının müvafiq qurumlara, məhkəmə orqanlarına verdiyi tövsiyələri, bilavasitə Lapşinə görə deyildi, atılan addım Azərbaycan dövlətinin qanunvericiliyində olan humanizmin dünyaya nümayişi idi"-deyə qeyd edən Elçin Mirzəbəyli əlavə edib ki, yalnız Lapşin deyil, digər insanlar da Cənab Prezidentin tövsiyəsinə əsasən, əfv olundular: "Ona görə də, hesab edirəm ki, Lapşin bizim qanunlarımız qarşısında acizlik, əfv olunduqdan sonra isə şeytan xislətini ortaya qoyub. Ona görə də, onun bu davranışlarından təəccüb də keçirmirəm. Çünki Lapşinin davranışları aşkar düşmən davranışlarıdır, o, düşmən cəbhədədir və bu cəbhədə kimlər varsa, bilavasitə Azərbaycan xalqının düşmənidir. Düşməndən isə fərqli mövqe gözləməyə dəyməz".

*Rövşən NURƏDDİNOĞLU*

# 2017-ci ilin I yarımilində Yasamal rayonunda sənaye müəssisələrinin işinin əsas göstəriciləri

***Yasamal rayon Statistika Şöbəsindən verilən məlumata əsasən, rayonda 2017-ci ilin I yarımilində sənaye müəssisələri tərəfindən 120130,6 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 27,7 faiz çox sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir.***



Sənayenin dövlət sektorunda 11908,4 min manatlıq və ya ümumi istehsalın 9,9 faizi qədər, qeyri-dövlət sektorunda isə 108222,2 min manatlıq və ya ümumi istehsalın 90,1 faizi qədər sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. 2017-ci ilin I yarımilində istehlakçılara 149684 min manatlıq, o cümlədən, sənaye müəssisələrinin öz istehsalı olan 120627,2 min manatlıq məhsul göndərilmişdir.

2017-ci ilin iyul ayının 1-i vəziyyətinə görə sənaye müəssisələrinin anbarlarında 3128 min manatlıq hazır məhsul qalmışdır. Sənaye məhsulu istehsalının ümumi çəkisində mədənçıxarma sənayesi 10,5 faiz, emal sektoru 78,1 faiz, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektoru 1,8 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektoru isə 9,6 faiz təşkil etmişdir. Emal bölməsinin müəssisələri tərəfindən 93756,8 min manat dəyərində və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 41,7 faiz çox məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Qida və içki məhsullarının istehsalı müəssisələri tərəfindən 42297,8 min manat həcmində məhsul istehsal edilmişdir. Kimya sənayesi məhsullarının istehsalı sahəsində 312,8 min manatlıq məhsul istehsal edilmişdir. Əvvəlki ilin müvafiq dövrünə nisbətən kimya sənayesində 29 faiz azalma müşahidə olunmuşdur.

Tikinti materiallarının istehsalı sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən 32085,5 min manatlıq məhsul istehsal edilmişdir. 2017-ci ilin I yarımilində sənaye müəssisələrində çalışan işçilərin orta aylıq əmək haqqı 627,2 manat və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,1 faiz artmışdır.

*Qismət İsmayılov*

# Ermənistan payız depressiyası ərəfəsində

## Sarqis Artsruni: "Serj Sarkisyan baş nazir kürsüsündə oturmaya da bilər"

***Ermənistan növbəti siyasi çaxnaşmalar mövsümünə daxil olmaq ərəfəsindədir. Belə ki, işğalçı ölkə parlament idarəçiliyi sisteminə keçid etdikdən sonra hakimiyyət daxilində və müxalifətdə cərəyan edən ziddiyyətli hadisələr Serj Sarkisyanın hansı mövqe nümayiş etdirəcəyini bəlli etmir. Buna səbəb isə, erməni prezidentinin hələ də perspektivlərini açıqlamamasıdır. Erməni analitikləri də bir sıra məqamlarda hakimiyyəti tənqid atəşinə tutmaqla yanaşı, müxalifətin də fəaliyyətsizliyini qeyd edir, onların eyni qazandan aş yediklərini bildirirlər.***

"Bu payız siyasi səhnəmiz depressiv olacaq, ona görə ki, Serj Sarkisyan siyasi perspektivini açmayacaq". Bu barədə Ermənistanın müxalifətyönlü saytlarından biri olan "1in.am"ın analitiki Sarqis Artsruni yazır. Onun sözlərinə görə, Sarkisyan, məhz müəyyənləşdirilməmiş siyasi səhnə və depressiya mühitindən alət kimi yararlanaraq, ustalıqla mövcud sistemə nəzarət edir. "Hətta Sarkisyan səhər kofe içməkdən başlayaraq, axşam çayına qədər onun istefasını tələb edənlərə də nəzarətini saxlamaqda davam etməkdədir"-deyə qeyd edən Artsruniyə görə, kənardan belə bir görüntü yaranır ki, açıqda Serj Sarkisyanın getməyini tələb edənlər belə, onun siyasi səhnədə qalmasını istəyən hakimiyyət nümayəndələri ilə eyni fikirləri bölüşürlər: "Ehtiyat edilən isə budur ki, o, baş nazir kürsüsünə oturmaya da bilər".



### "Ermənistan hakimiyyəti kriminal rejimdə fəaliyyət göstərir"

Erməni analitiki yazır ki, hakimiyyət nümayəndələrini anlamaq olar. Çünki istənilən iqtidar konservativ xarakterinə malikdir və hakimiyyətdə olanlar birinci şəxsin dəyişilməsinə çətin alışırlar. SİTAT: "Lakin Ermənistanda ümumi qanunlara aşkar yerli xüsusiyyətlər də əlavə olunur. Yəni Ermənistan hakimiyyəti konstitusion rejimində deyil, kriminal rejimində fəaliyyət göstərir ki, burada "birinci şəxsin" legitimliyi mövcud siyasətlə deyil, daxili sistemin fəaliyyəti ilə ölçülür. Daxili sistemdə Serj Sarkisyandan başqa sistem seqmentləri üçün konsensus yaradacaq digər kimsə yoxdur və əlbəttə ki, insan faktoru da mövcuddur: hakimiyyət nümayəndələri total şəkildə "pozulmaq" istəmirlər, çünki əgər Sarkisyan baş nazir olmaqdan imtina edərsə, onlar sonuncu üçün canlı "juçoklara" (gizli xəfiyyələrə-red.) çevriləcəklər, hətta bəzilərinin payına "ikili juçokluq" etmək düşəcək".

### "Müxalifət istəsə də, istəməsə də Sarkisyanın müəyyən etdiyi oyunun qaydalarına əməl edir"

Sözügedən təhlilində müxalifətin fəaliyyəti barədə də yazan erməni analitki Sarqis Artsruni antisarkisyançıların zəiflik göstərdiklərini qeyd edir. SİTAT: "Əgər bizim müxalifətin özəl siyasi baxışı olsaydı, başqalarının qalibiyyət məclislərində çağırılmamış qonaq kimi iştirak etməkdənsə, "döyüşə" hazırlaşardı. Bundan əlavə, bizim müxalifətin gündəmi yoxdur, istəsə də, istəməsə də Sarkisyanın müəyyən etdiyi oyunun qaydalarına əməl edirlər".

"Bir çox siyasi müxalifət liderləri publik şəkildə Serj Sarkisyanın istefasını tələb edirlər, daxildə isə bu perspektivdən dəhşətə gəlirlər, çünki "hədəf" gedərsə, bu zaman "ovçuya" da ehtiyac qalmır: "1998-ci ildə, məhz bu hal yaşanmışdı, belə ki, Vazgen Manukyan siyasi səhnədən kənar qaldı, Levon Ter-Petrosyan isə 10 illik tənha həyatı seçdi". Erməni analitiki, məhz bu amilləri qeyd etdikdən sonra xalqın nə hakimiyyətə, nə də müxalifətə inamının qalmadığını bildirir, bu isə, Ermənistanda hakimiyyətin kriminal rejim olması ilə yanaşı, müxalifət cameəsinin də kriminallaşması göz önündədir.

*R.RƏSULOV*

# Siyasiləşmiş QHT-lərin hay-küyü əsassızdır

*Qanunda nəzrdə tutulan növbəti dəyişiklik QHT-lərin fəaliyyətinə stimul olacaq*

***Məlum olduğu kimi, Milli Məclisin payız sessiyasında QHT-lər haqqında qanuna əlavə və dəyişikliklər nəzərdə tutulur. Bu dəyişikliklərdə QHT-lərin qeydiyyatı, onların maliyyə hesabatı verməsi və digər məsələlər öz əksini tapacaq.***

Çox maraqlıdır ki, müxalifətin təsir dairəsində olan siyasiləşmiş QHT-lər nəzərdə tutulan bu dəyişikliklə bağlı hay-küy salır və müəyyən bəyanatlar səsləndirirlər. Söhbət etdiyimiz müsahiblərimiz istənilən qanunun qəbulunun demokratik prinsiplərə əsaslandığını və bu baxımdan, QH-lərlə bağlı qanuna dəyişikliyin vətəndaş institutlarının mənafeyinə xidmət edəcəyini qeyd etdilər.

### İnsan Hüquqları XXI əsr Fondunun sədri Şahin Camalov:

- Təəssüflər olsun ki, bu gün biz bəzi QHT-lərin siyasiləşməsi məsələsinə rast gəlirik. Bu da yolverilməzdir. Uzun illər QHT sektorunda çalışan hər kəs bilir ki, doğrudan da, bir müddət əvvəl, QHT sektorunda fəaliyyət göstərən şəxslər arasında ciddi bir xaos var idi və nəticədə, kim haradan necə gəldi pul alırdı. Yəni maliyyə məsələlərində çox az QHT-lər qanuna riayət edirdi. Bəzi QHT-lərin qanundankənar maliyyə vəsaiti əldə etmələri və əldə olmuş maliyyə mənbələrinə dair aidiyyətli qurumların məlumatlandırılmaması kimi məsələlər araşdırılaraq, aşkar edildi və qanunvericilik sərtləşdirildikcə, bu məsələlər öz həllini tapmağa başladı. Nəzərdə tutulan dəyişikliklər də, təbii ki, maliyyə məsələləri ilə bağlıdır. Çünki maliyyə məsələsi QHT sektorunun ən ciddi problemlərindən biridir. Bunun sərtləşdirilməsi qanunvericiliyin tələblərinə uyğun fəaliyyət göstərən QHT-lərə bir o qədər ciddi narahatçılıq yaratmayacaqdır. Sadəcə olaraq, işini düzgün qurmaq və qanunlar çərçivəsində fəaliyyət göstərmək lazımdır. Əgər hər bir QHT fəaliyyətlərini qanun çərçivəsində həyata keçirərsə, hər şey yaxşı olar. Bu baxımdan da, QHT-lər qanun çərçivəsində öz işini həyata keçirməlidir.

### Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov:

- Milli Məclisin payız sessiyasında nəzərdə tutulan QHT-lərlə bağlı qanuna dəyişikliklər edilməsinin əsas məqsədi vətəndaş cəmiyyəti qurumlarının fəaliyyətinə dəstək olaraq həm qeydiyyat prosedurunun yumşaldılması, həm də bəzi əlavə maliyyə hesabatlarının ləğvi və ya daha rahat üsulların tətbiq edilməsidir. Hesab edirəm ki, bu dəyişikliklər QHT-lərin daha rahat fəaliyyət göstərmələrinə hesablanmışdır. Bu dəyişikliklərin içərisində mən istərdim ki, QHT-lərin Maliyyə Nazirliyinə təqdim etdikləri illik hesabat ləğv edilsin. Bu gün artıq bu hesabat QHT üçün artıq yükdür. Hesab edirəm ki, onların hay-küyünün heç bir əsası yoxdur. Çünki nəzərdə tutulan dəyişikliklər yalnız QHT-lərin fəaliyyətinə dəstək üçündür. Ola bilər ki, dövlətimizin təhlükəsizliyi naminə hansısa bir maddə o qanunda öz əksini tapa bilər. Bunun normal qanunlar çərçivəsində fəaliyyət göstərən QHT-lər üçün isə heç bir problemi yoxdur. Ümumiyyətlə, bu gün QHT-lərin Azərbaycanda fəaliyyət göstərmələri üçün tam şərait yaradılmışdır və heç bir problem yoxdur. Sadəcə, bəzi çirkin niyyətli QHT-lərin fəaliyyətinə nəzarət etmək üçün qanunda bir neçə maddələr vardır ki, bu da şəffaf, Azərbaycan maraqları üçün fəaliyyət göstərən QHT-lər üçün heç bir problem yaratmır. Bunlardan ancaq narahat olan QHT-lərdən siyasi və digər maraqlar üçün istifadə edən az bir qisim insanlardır. Bütünlükdə Azərbaycanda fəaliyyət göstərən əksər QHT-lər bu qanunlardan narahat deyil və normal şəkildə öz fəaliyyətlərini aparırlar.

**GÜLYANƏ**

## Niyaməddin Orduxanlı: "Əli Kərimli tarixə satqın və xəyanətkar kimi düşüb"



"Əli Kərimlinin bu illər ərzində keçirdiyi mitinqə Azərbaycan istimaiyyəti, xalqı dəstək verməyib. Xalqın ona dəstək verməməsinin də çox cidd səbəbləri var. Çünki, Azərbaycan xalqı onun kimliyini çox yaxşı bilir və bu baxımdan da Əli Kərimlinin mtinq keçirmək təşəbbüsləri qeyri-ciddi qəbul olunur". Bunu SİA-ya açıqlamasında BAXCP sədrinin müavini Niyaməddin Orduxanlı deyib.

N.Orduxanlı bildirib ki, Əli Kərimlinin sentyabr ayın 23-də mitinq təyin etməsi faktı sosial şəbəkələrdə qeyri-ciddi bir hadisə kimi ələ salınır, gülüş obyektinə çevrilir: "İnsanlar Əli Kərimlinin növbəti dəfə "mitinq" arzusunu partiya arayışının satılması kimi təqdim edirlər. Bilirsiniz ki, bu günə kimi Əli Kərimlinin Avropada yaşamaq istəyənlərə saxta partiya arayış verməsi ilə bağlı çoxlu sayda faktlar var. O bu yolla ən yaxın qohumlarını, yerlilərini hələ bir neçə il bundan öncə Fransada, Hollandiyada yerləşdirə bilib. Belə olan halda, insanlar haqlı olaraq Əli Kərimliyə gülür və qeyd edirlər ki, 500-1000 nəfərlik "mitinq" etməyin nə mənası var?! Hətta Əli Kərimlinin yanında olan bir neçə şəxsin mitinqə qatılmayanlarla bağlı yazdıqları fikirlər belə insanlar tərəfindən çox sərt şəkildə qəbul edilir. Çünki onlar mitinqə qatılamayanlar haqqında təhqiramiz ifadələr işlədirlər. Təbii ki, Əli Kərimlinin ətrafında bu cür axmaq, mədəni səviyyəsinin aşağı olan insanların olması da təbiidir. Onun yanında yalnız bu tərbiyənin sahibi olanlar qala bilər".

BAXCP sədrinin müavini qeyd edib ki, özünə hörmət edən şəxs heç zaman Əli Kərimlinin yanında qalıb, onun üçün fəaliyyət göstərməz: "Çünki Əli Kərimli illərdir ki, yaxın ətrafında olan insanlara xəyanət edir. O kimlərə xəyanət etmədi? Əli Kərimli sədri Əbülfəz Elçibəydən tutmuş, onun üçün sinəsini güllə qabağına vermiş bütün insanlara xəyanət edən biridir. Satqın və xəyanətkar heç zaman unudulmur. Əli Kərimli də Azərbaycanın siyasi tarixinə satqın və xəyanətkar kimi düşüb!".

# Rəsul Quliyev yenidən qızışdı

*Və yaxud kor-kora kor deməsə, bağrı çatlar*



***Gözəl deyim var: tarixi geri qaytarmaq mümkün deyil, onu olduğu kimi qəbul etmək lazımdır. Çünki o, yalanı sevmir. Bu gün müxalifət düşərgəsi deyilən bir məkanda özlərini "siyasətçi" adlandıran "liderlər"də nə siyasət var, nə də əxlaq.***

Növbəti il keçiriləcək seçkiərdə Azərbaycanda xaos yaratmaq arzusunda olan məkrli xarici qüvvələr onların quluna çevrilən və qrant almaq ehtirası ilə yanan dağıdıcı müxalifətdən istifadə edib. Bu gün dağıdıcı müxalifət düşərgəsi qarşıdakı prezident seçkiləri ərəfəsi maddi çətinlikdən çıxış yolu kimi dərhal "siyasi məhbus" məsələsini ortaya atıb. Söhbət heç də hansısa məhkumun hüquqlarını müdafiə etmək istəyindən getmir, çünki bu məsələ "siyasi məhbus" alverçilərini zərrə qədər də düşündürmür, onları yenə də Qərbdəki konkret donor təşkilatlarından külli miqdarda qrant almaq və varlanmaq ehtirası maraqlandırır.

Dağıdıcı müxalifət düşərgədə baş verən bu proseslərdən gərginləşən və 1996-cı ildən ölkəni tərk edən və mühacir həyatı yaşayan eks-spiker Rəsul Quliyev radikal müxalifətin iç üzünü daha qabarıq şəkildə ortaya qoyub.

### Kiflənmiş bugünkü fırıldaqçı müxalifət yaramaz ideologiyaya söykənib

R.Quliyev "facebook"da illərdir ki, müxalifət öz istəyinə çatmaq üçün bütün yalanlara və böhtanlara əl atdığını yazıb: "Bu o badbaxt müxalifətdir ki, illər boyu öz məqsədinə çatmaq üçün istənilən yalanı, böhtanı demək, başqalarını aldadıb kələk gəlmək və sair yaramazlıqlar etməyə qadirdir. 90 faizi 1990-cı illərdən qalan kiflənmiş müxalifətçilər məqsədlərinə çatmaq üçün istənilən yalanı demək, yaramaz ideologiyaya söykənib eyni siyasətlərini 24 ildir davam etdirməkdədirlər".

R.Quliyev artıq müxalifət düşərgəsindəki durumun, həqiqətən də, onların arxivə atıldığını sübut etdiyini bildirərək, yazır ki, kif iyi verən bu badbaxtlarla seçkilərə getmək olmaz: "Bu badbaxtların hər seçkiərəfəsi qalib gələcəkləri ilə bağlı iddialar irəli sürmələri, doğrudan da, həyasızlığın son həddidir. Bu gün müxalifətdə olanların hamısı bir nəfər kimi istefa verib getməlidirlər. Çünki nə ölkə daxilində, nə də xaricdə bu hakimiyyətə Azərbaycanda alternativ qüvvə heç mikroskopla belə görünmür".

Bu yerdə Dostoyevskinin təsvir etdiyi kimi cinayəti törədib, onun cəzasından qaçmaq mümkündür. Amma o cinayətin qorxusundan çıxmaq, əsla mümkün deyil. R.Quliyev də, görünür, bu gün müxalifətdə olanların cinayətinin və xəyanətinin qorxusu ilə baş-başa qalıb. Bu qorxu o həddə çatıb ki, eks-spiker artıq öz cinayətlərini və xəyanətlərini belə unutdurmaq istəyi ilə müxalifəti xəyanətkar adlandırır. Buna, sadəcə olaraq, bir sözlə ifadə etmək olar: kor-kora kor deməsə, bağrı çatlar.

**Rəfiqə HÜSEYNOVA**

# "Nar" yeni "HD-Voice" yüksəkkeyfiyyətli səs ötürmə texnologiyasını təqdim etdi

Gəlin birlikdə böyüyək

"Nar" şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində mobil telefon vasitəsilə ünsiyyətdə olarkən səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim etdi. Bu texnologiya səsin maksimal dərəcədə təmiz ötürülməsini təmin edir və mobil telefonla danışan şəxsdə üzbəüz ünsiyyət təəssüratı yaradır. Səs tembri və intonasiyanın keyfiyyətlə ötürülməsini təmin edən bu texnologiya sayəsində "Nar" istifadəçiləri mobil telefonla danışarkən daha rahat ünsiyyət qura biləcəklər. Səs tezlikləri diapazonunun genişləndirilməsini təmin edən yeni texnologiya həm də kənar səslərin təsirini minimuma endirir, nəqliyyat vasitəsində hərəkət edərkən zəng xidmətinin daha da aydın və qüsursuz olmasını təmin edir. "HD-Voice" sayəsində "Nar" abunəçiləri üçün uzun telefon danışıqları və ya yüksəksəsli rabitə (handsfree) artıq əvvəlki kimi yorucu olmayacaq.

Mobil rabitə cihazı "HD-Voice" və 3G-ni dəstəkləyən istənilən "Nar" abunəçisi xidmətdən yararlana bilər. Texnologiyanın tətbiqi üçün heç bir əlavə ödəniş nəzərdə tutulmur və bu xidmət mobil rabitə cihazlarının sərf etdiyi enerjiyə təsir etmir.

Bu gün təqribən 2 milyondan artıq abunəçisi olan, geniş şəbəkəsi və sərfəli qiymətləri ilə istifadəçilərə yüksəkkeyfiyyətli xidmət göstərən "Nar"-ın şəbəkəsi 6000-dən artıq baza stansiyasından ibarət olmaqla ölkə ərazisinin 93%-ni əhatə edir. Abunəçilər rabitə xidmətləri provayderi olan "Nar"-ın tariflərindən istifadə etməklə bütün istiqamətlərdə sərfəli qiymətlərdən faydalanırlar. "Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib.

# Azərbaycan sovet elm və təhsili: uğurlar və çatışmazlıqlar

***Bütün SSRİ-də olduğu kimi, Azərbaycan SSR-də də elm və təhsil kommunist cəmiyyətinə xidmət edir, onun inkişafı üçün zəruri olan kadr hazırlığını təmin edirdi. Tahir Qaffarov yazır: "Respublikada rəhbər partiya-sovet kadrları hazırlamaq sahəsində də geniş iş aparılırdı. Bakıda 1920-ci ildə 3 aylıq sovet-partiya məktəbləri, 3-6 aylıq mərkəzi sovet-partiya məktəbi təşkil olunmuşdu. Qəzalarda da belə məktəblər açılırdı. 1930-cu ildə Bakı Sovet-Partiya Məktəbi Mərkəzi Partiya Məktəbinə çevrildi. Bakı Kommunist Universiteti açıldı.***

Kommunist Universiteti 1932-ci ildə kənd təsərrüfatı üçün rəhbər kadrlar hazırlayan Ali Kommunist Kənd Təsərrüfatı Məktəbinə çevrildi. Başqa şəhərlərdə, habelə, Zaqafqaziya Kommunist Universitetində və partiya təşkilatları və sovetlər üçün rəhbər kadrlar hazırlanırdı.

Məktəblərin başlıca vəzifəsi inkişafı üçün mərkəzin maraqlı olduğu sahələrdən ötrü müəyyən bilik və qabiliyyətlərə yiyələnən mövcud quruluşa sadiq, icraçı kadrlar hazırlamaq idi və onların işi buna müvafiq şəkildə qurulmuşdu. 20-ci illərdə tədris proqramlarından, dərsliklərdən türkçülük, islamçılıq ideyalarını, xalqın mənəvi dəyərlərini təbliğ edən mövzular sıxışdırılıb çıxarıldı. Azərbaycan müəllimləri qurultaylarına (1921, 1926) və bu kimi başqa təzyiqedici tədbirlərə baxmayaraq, məktəb hələ xeyli vaxt bolşevizmə yad olan ideoloqların təsiri altında qalmaqda idi.

Təhsilin ideya-siyasi məzmununa diqqət 30-cu illərdə əsaslı şəkildə artdı. 1931/32-ci dərs ilindən ümumtəhsil məktəbləri yeni plan və proqramlar üzrə işləməyə başladılar. Müəllim və şagirdlərə tədris prosesində xeyli müstəqillik verən briqada-laboratoriya üsulu ləğv edilib sinif-dərs sistemi tətbiq olundu. Pedalogiyaya qarşı qəti mübarizə aparıldı. SSRİ XKS və ÜİK(b)P MK-nın 1934-cü il 16 may tarixli qərarı ilə əlaqədar məktəblərdə tarix, coğrafiya fənlərinin tədrisinə diqqət və nəzarət gücləndirildi. Tarix dərslərindən ideoloji silah kimi istifadə olunurdu. Sovet cəmiyyəti ideal bir cəmiyyət kimi təqdim edilirdi. "SSRİ tarixi", əslində, Rusiya tarixi kimi tədris olunurdu. Ədəbiyyat dərslərində də sovet reallıqları kobud surətdə saxtalaşdırılırdı. 1938-ci ildən bu sahədə xüsusi qərarla əlaqədar milli məktəblərdə rus dilinin öyrənilməsinə diqqət artırıldı. 1940/41-ci dərs ilindən 5-ci sinifdən xarici dil icbari tədris olunmağa başlayır.

Hakim dairələr müəllimin ideoloji işdə, bolşevikcəsinə məktəb quruculuğunda böyük rol oynadığını nəzərə alırdılar. 1936-cı ilin aprelində müəllimlərin əmək haqqı 3 dəfə artırıldı. Onlar yüksək fəxri adlarla, orden və medallarla təltif edilirdilər. 1940-cı ildə 82 müəllimə respublikanın əməkdar müəllimi adı verilmişdi. 70 nəfər müəllim orden və medallarla təltif olunmuşdu.

Hakim bolşevik ideologiyasını beyinlərə yeritməyin mühüm vasitələrindən biri də məktəbdənkənar təhsil sistemi idi. 1920-ci ildə respublikanın şəhər və kəndlərində cəmi 107 klub, 61 kitabxana vardı. Həmin il Azərbaycan Tarixi Muzeyi təşkil edilmişdi. 1923-cü ildə Respublika Dövlət Kitabxanası (1939-cu ildən M.F.Axundovun adını daşıyır), 1925-ci ildə Dövlət Kitab Palatası fəaliyyətə başlamışdı. Tarix Muzeyinin incəsənət şöbəsi əsasında 1936-cı ildə Azərbaycan İncəsənət Muzeyi (1943-cü ildən R.Mustafayev adına) yaradıldı.

Qadın klubları təşkil olundu. Onların işi Əli Bayramov adına Mərkəzi Qadın Klubundan əlaqələndirilir, idarə olunurdu. 1933-cü ildən bu klub qadın mədəniyyət evinə çevrilmişdi. Qadın klubları və mədəniyyət evləri qadınların emansipasiyası işində, çadra əleyhinə mübarizədə mühüm rol oynayırdı.

Mədəni-maarif müəssisələri şəbəkəsi durmadan genişləndi. 1940-cı ildə Azərbaycan SSR-də artıq 1389 kitabxana, 1633 klub vardı. Kitabxanaların fondunda kitabların sayı 1920-ci ildəkindən 11 dəfə çox -3,3 milyon nüsxə idi.

Partiya təşkilatlarının rəhbərliyi ilə şəhərlərin mədəniyyət və sənaye müəssisələrində kənd yerlərində mədəniyyət ocaqları təşkilinə və onların mövcud rejimin məqsədlərinə müvafiq şəkildə fəaliyyət göstərməsinə kömək etmək üçün hamilik hərəkatı təşkil olunmuşdu.

Kommunizm, sovet cəmiyyəti, bu cəmiyyətin inkişafında partiyanın, bolşevik liderlərin, xüsusən, Stalinin rolu haqqında ehkamların yayılmasında, savadsızlığın ləğvində, qadınların ictimai həyata cəlb olunmasında, çadraya qarşı mübarizədə, cəhalət və fanatizmin tənqid olunmasında mədəni-maarif müəssisələri mühüm rol oynayırdılar".

İkinci respublikada siyasi-ideoloji dəyişikliklər mədəni dəyişikliklərlə əlaqədar baş verirdi. Ciddi inzibati amirlik nəticəsində:

* yerliçiliyə son qoyuldu, Azərbaycan sovet milləti formalaşdı;

* yüksək ixtisaslı sovet kadrları yetişdi;

* Vahid Azərbaycan ədəbi dili yarandı;

* kütləvi savadlanma həyata keçirildi;

* sovet dövlətçilik ənənələri formalaşdı.

Azərbaycanda yeni peşəkar mədəniyyət təşəkkül tapdı, yüksək elmi nailiyyətlər əldə edildi. Respublikanın sərvətlərindən daha çox bəhrələnmək, buna münasib maddi və mənəvi imkanlar yaratmaq üçün imperiya Azərbaycanın elmi potensialını artırmaq və ondan səmərəli istifadə etməyə çalışırdı. 1920-ci ildə "Azneft"də xüsusi geoloji- kəşfiyyat bürosu təşkil edildi. 1921-ci ildə Bakı Dəniz Observatoriyası fəaliyyətə başladı. 1923-cü ildə Azərbaycan SSR Geologiya Komitəsi yaradıldı. Müttəfiq respublikaları, o cümlədən, Azərbaycanı tədqiq etmək üçün SSRİ Elmlər Akademiyası yanında xüsusi komissiyalar təşkil olunmuşdu. 1923-cü il noyabrın 2-də Ə.Haqverdiyevin sədrliyi ilə "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" - Azərbaycanı Öyrənən Cəmiyyət, həmçinin, onun Naxçıvan, Xankəndi, Nuxa və Şamaxı şöbələri, tarix bölməsinin Leninqradda xüsusi şöbəsi təsis olunmuşdu. Həmin il Respublika Maarif Komissarlığı yanında elmi işlərə rəhbərlik etmək üçün Elmi Şura yaradılmış və o, 1926-cı ildə Dövlət Şurasına çevrilmişdi. Sonrakı illərdə respublikada elmi müəssisələrin şəbəkəsi xeyli genişləndi. 1925-ci ildə Ümumittifaq Energetika və Elektrikləşmə Elmi-Tədqiqat İnstitutunun Bakı bürosu, Mərkəzi Külək-Energetika İnstitutunun Azərbaycan Şöbəsi, Heyvandarlıq və Veterinariya Elmi-Tədqiqat İnstitutu təşkil olundu. 30-cu illərin əvvəllərində Tətbiqi Mineralogiya İnstitutunun Azərbaycan Şöbəsi, Azərbaycan Elmi-Tədqiqat Tikinti İnstitutu, Azərbaycan Neft Tədqiqat və Neft Maşınqayırma İnstitutları, habelə, başqa elm ocaqları təşkil edildi.

Azərbaycanı Öyrənən Cəmiyyətdə 1928-ci ildə artıq mindən çox elmi işçi çalışırdı. Onun tətbiqi elmlər şöbəsi açılmışdı. 1929-cu ildə bu cəmiyyətin əsasında Dövlət Elmi-Tədqiqat İnstitutu yaradıldı. Bu institutun təbiət, biologiya, tarix və etnoqrafiya, dilçilik, ədəbiyyat və incəsənət, fəlsəfə, dövlət və hüquq, Sovet Şərqi və Xarici Şərq bölmələri vardı. Bir il sonra bu institutdan respublikanın təbii məhsuldar qüvvələrini öyrənən tədqiqat institutu ayrıldı.

1932-ci ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi təşkil edildi. Şöbəyə R.Axundov rəhbərlik edirdi. Azərbaycanda elmin inkişafında F.Y.Levinson-Lessinq, A.A.Qrossheym, İ.M.Qubkin, N.Y.Marr, İ.İ.Meşşaninov, A.N.Derjavin, İ.Q.Yesman və başqaları kimi məşhur sovet alimlərinin böyük rolu olmuşdur. Bu elm mərkəzində B.Çobanzadə, A.Tağızadə, Salman Mümtaz, M.Əfəndiyev, V.Xuluflu kimi istedadlı alimlər yetişmişdi. 1935-ci ildə SSRİ EA Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi SSRİ EA Azərbaycan Filialına çevrildi. Onun tarix, etnoqrafiya, arxeologiya, dil və ədəbiyyat, kimya, biologiya, zoologiya institutları, fizika, energetika, geologiya və torpaqşünaslıq bölmələri təşkil olundu.

Azərbaycanın təbii sərvətlərinin, xüsusən, enerji ehtiyatlarının öyrənilməsi və istifadə olunması üzrə elmi-tədqiqat işləri sürətlə genişlənirdi. Geologiya elmi, əsasən, neft və başqa təbii sərvətlərin aşkara çıxarılması istiqamətində inkişaf edirdi. Bu sahədə rus alimləri M.V.Abramoviç, D.V.Qolubyatnikov, İ.M.Qubkin fəal iş aparırdı. Neft çıxarılması, emalı, daşınması, neft kimyası və energetika sahələrində nəzərəçarpacaq elmi-texniki irəliləmələr əldə olunmuşdu.

Azərbaycan tibb elmi xeyli inkişaf etdi. Mustafa Topçubaşov 30-cu illərin sonlarında tezliklə dünyada məşhurlaşan cərrahiyyə əməliyyatları zamanı anelkezinlə narkoz metodunu işləyib-hazırladı.

Respublikanın pambıqçılıq rayonlarında torpağın, habelə, heyvan və bitki aləminin, otlaqların öyrənilməsi sahəsində də mühüm tədqiqat işləri aparılırdı.

1929-cu ildə Qızıl-Ağac, Zaqatala qoruqları təsis edildi. 1934-cü ildə Bakıda 41 h sahədə 2500 növdən ibarət bitki kolleksiyası toplanmış Botanika Bağı salınmış, Mərdəkan qəsəbəsində onun filialı yaradılmışdı. Lakin biologiya elmi birtərəfli inkişaf etdirilirdi. Genetika antimarksist elm kimi sıxışdırılırdı. Canlı aləmin inkişafında mühitin, tərbiyənin rolu çox şişirdilir və genlərlə keçən təbii imkanların əhəmiyyəti nəzərə alınmırdı.

İctimai elmlər sahəsində öz dəst-xətti ilə fərqlənən iki mərkəz yaranmışdı. Bunlardan biri, əsasən, "köhnə mütəxəssislərin" cəlb olunduğu Azərbaycanı Öyrənən Cəmiyyət idi. Onun işində Simurq (T.Şahbazi), Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, B.Çobanzadə, İ.İ.Meşşaninov, M.Vəlili (Baharlı) və başqaları fəal iştirak edirdi. Burada Azərbaycan xalqının tarixi, maddi və mənəvi mədəniyyətinin obyektiv şəkildə öyrənilməsinə cəhdlər göstərilirdi. İlk mənbələr aşkara çıxarılır, öyrənilir, tərcümə edilir və çap olunurdu. 1925-1929-cu illərdə bu cəmiyyətin "Xəbərlər"i nəşr edilirdi. Bu illərdə görkəmli iqtisadçı-alim Məhəmmədhəsən Vəlilinin "Azərbaycan: coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat". R.İsmayılovun "Azərbaycan tarixi", Y.Paxomovun "Azərbaycan tarixinin qısa kursu" və başqa əsərlər çap olunmuşdu.

1922-ci ildə təşkil olunmuş Azərbaycan Arxeologiya Cəmiyyəti fəal iş aparırdı. 1923-cü ildə bu cəmiyyət Arxeologiya Komitəsinə, 1927-ci ildə isə Tarix, İncəsənət və Təbiət Abidələrinin Mühafizəsi Komitəsinə çevrildi. Respublikada böyük arxeoloji abidələr - Xocalı-Gədəbəy, Yaloylutəpə, Qızıl-Vəng arxeoloji mədəniyyətləri aşkar edildi.

Fəlsəfə, ədəbiyyat, dilşünaslıq sahələrində də müəyyən irəliləmələr əldə olunmuşdu. Klassik şair və yazıçıların əsərləri, habelə, görkəmli ədəbiyyatşünas F.Köçərlinin ədəbiyyat tarixinə dair tədqiqatları çap edilmişdi. Azərbaycan xalqının ədəbi irsinin toplanması və sistemləşdirilməsində Salman Mümtaz mühüm rol oynayırdı. O, "Azərbaycan ədəbiyyatı" silsiləsindən Nəsimi, Xətai, Vaqif, Zakir, Vazeh və b. əsərlərini, ümumiyyətlə, 20-dən çox kitab çap etdirmişdi.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

## Alimlər DNT əsasında qədim heyvanları "dirildəcəklər"

Alimlər Qalapaqos tısbağalarını "diriltmək" niyyətindədirlər. Bunun üçün elm adamları nəsli kəsilmiş bu heyvanların DNT-lərindən istifadə edəcəklər.

AZƏRTAC "RİA Svejiy Veter" saytına istinadla xəbər verir ki, alimlər beş il müddətində nəsli kəsilmiş Qalapaqos tısbağalarını yenidən "həyata qaytarmağı" düşünürlər. Beynəlxalq tədqiqatçılar qrupu İsabella adasında çarpazlaşdırılmış tısbağa növü aşkar edib. Ekspertlər aşkar olunmuş heyvanlardan götürülmüş DNT nümunələrində nəsli kəsilmiş yerli Qalapaqos tısbağalarının izlərini aşkar ediblər. Hazırda mütəxəssislər nəsli kəsilmiş tısbağaların genlərini digərlərindən ayırmaq və ilkin görünüşlərini bərpa etmək üzərində işlər aparırlar. Onların fikrincə aparılan çalışmalar yalnız beş il sonra öz bəhrəsini verə bilər.

## İdiopatik skolioza ən çox 10-14 yaşlı uşaqlarda rast gəlinir

Onurğa sütununun əyriliyi skolioz adlandırılır. Bu xəstəlik xüsusilə gənc və yeniyetmə yaşlarında özünü daha qabarıq büruzə verir ki, bu da insanda kompleks yaradır. Əyriliklər əsasən döş və bel nahiyələrində müşahidə olunur. Xəstəliyin proqressiv inkişafı onurğa sütununun və döş qəfəsinin nəzərə çarpacaq dərəcədə deformasiyası ilə nəticələnir. Bu isə inkişaf edən orqanizmdə bir sıra orqan və sistemlərin patoloji dəyişikliklərinə səbəb olur. Xəstəliyin əyilmə bucağı 10 dərəcədən artıq olduqda ümumi yayılma tezliyi 2-3 faiz, 6-14 yaşlı uşaqlar arasında 0.5 faiz, 12-14 yaşlı yeniyetmələr arasında isə 1.2 faiz təşkil edir. Yeniyetməlik dövrünün idiopatik skoliozu ən çox 10-14 yaş dövrünə təsadüf edir. Bu xəstəliyə qızlara nisbətən oğlanlarda daha çox rast gəlinir. İdiopatik skolioz adı bu günə qədər xəstəliyin əmələ gəlmə səbəbinin məlum olmamasına görə verilib.

Respublika Müalicəvi Diaqnostika Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, hər bir valideyn övladında skoliozun olub-olmadığını özü təyin edə bilər. Bunun üçün sadəcə uşağin belinə diqqətlə baxmaq lazımdır. Skolioz zamanı belin sağ və ya sol tərəfi digəri ilə müqayisədə yuxarıda olur. Belə əyrilik müşahidə edildikdə isə həkimə müraciət mütləqdir.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika və Texnologiya fakültəsinin III kurs tələbəsi Hüseynova Arzu Novruz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika və Texnologiya fakültəsinin III kurs tələbəsi Rüstəmova Nuranə Namiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika və Texnologiya fakültəsinin II kurs tələbəsi İsmayılova Aytac Mahir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat və İnformatika fakültəsinin II kurs tələbəsi Çinayeva Naidə Ömər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat və İnformatika fakültəsi IV tədris ilinin tələbəsi Hacıyev Qasımın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya və Biologiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Əliyeva Mətanət Mehman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Soltanova Gülsümün adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyat müəllimi ixtisası üzrə III kurs tələbəsi Şeydayeva Pərvinin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.



## Azərbaycan millisinin üzvü erməni cüdoçuya qalib gələrək Avropa çempionu olub

Sloveniyada gənc cüdoçular arasında keçirilən Avropa birinciliyinin fərdi yarşları başa çatıb. Mötəbər yarışın ikinci günü də cüdoçularımız üçün uğurlu olub. AZƏRTAC xəbər verir ki, 100 kq çəki dərəcəsində mübarizə aparan Zelim Kotsoyev bütün rəqiblərinə qalib gələrək Avropa çempionu adını qazanıb. Azərbaycan cüdoçusu finala gedən yolda Slovakiya, İsveçrə və Polşa təmsilçilərini məğlub edib. Milli komandamızın üzvü Avropa birinciliyinin həlledici görüşündə Rusiyanı təmsil edən erməni əsilli cüdoçu Arman Adamyana qalib gələrək qızıl medala layiq görülüb. Beləliklə Azərbaycan cüdoçuları qitə birinciliyində 3 qızıl, 2 gümüş və 2 bürünc medal qazanıblar. Millimiz kişilərin komanda yarışında birinci yeri tutub. Rusiya ikinci Almaniya komandası isə üçüncü olub. Ümumi komanda yarışında isə millimiz ikinci pillədə qərarlaşıb.

## Rumıniya millisini yeni baş məşqçi çalışdıracaq



Futbol üzrə Rumıniya milli komandasının baş məşqçisi vəzifəsinə 41 yaşlı Kosmin Kontra təyin olunub. Bu barədə Rumıniya Futbol Federasiyası məlumat yayıb. Məlumata əsasən, K.Kontra ilə iki il müddətinə müqavilə imzalanacaq. O, bu postda almaniyalı Kristof Daumu əvəzləyib.

2018-ci ildə Rusiyada keçiriləcək futbol üzrə dünya çempionatının seçmə mərhələsinin "E" qrupunda yer alan Rumıniya millisi 9 xalla dördüncü sırada qərarlaşaraq mundialda çıxış etmək şansını itirib.



## "Real Madrid" Daniel Karvaxal ilə müqaviləni yeniləyəcək

"Real Madrid" klubu ispaniyalı müdafiəçi Daniel Karvaxal ilə müqavilənin müddətinin 2022-ci il iyunun 30-dək uzadıb. Madrid klubunun açıqlamasında müqavilənin müddətinin uzadılması ilə əlaqədar Karvaxalın "Santyaqo Bernabeu" stadionunda mətbuat konfransının təşkil olunacağı bildirilib. İspaniya mətbuatı müqaviləyə əsasən, 25 yaşlı müdafiəçinin sərbəst qalması üçün ödəniləcək məbləğin 350 milyon avro olaraq müəyyən edildiyini yazıb. Xatırladaq ki, kral klubu bir müddət əvvəl Marselo və İsko ilə də müqavilənin müddətini 2022-ci ilə qədər uzadıb.

## "Neftçi" Emin Mahmudovla müqavilə bağlayıb



"Neftçi" PFK daha bir transferə imza atıb. SİA-nın məlumatına görə, yarımmüdafiəçi Emin Mahmudovla mövsümün sonunadək müqavilə bağlanılıb. 25 yaşlı futbolçu 8 nömrəli formanı geyinəcək. Qeyd edək ki, Rusiyanın "Saturn" klubunun yetirməsi olan Emin Mahmudovun sonuncu klubu "Boavişta" (Portuqaliya) olub. O, Azərbaycan milli komandasının üzvüdür.



## "Yuventus"un hücumçusu: Messi bir futbol əfsanəsidir

İtaliya A Seriyasının 4-cu turunda "Sassuolo" ilə matçda het-trik edən "Yuventus"un hücumçusu Paulo Dibala qarşılaşmadan sonra açıqlama verib. SİA-nın məlumatına görə, argentinalı ulduz özünün və komandasının sərgilədiyi performans barədə danışıb: "Oyundan öncə bir qol vurmaq istəyirdim, ancaq het-trik etdim. Üç dəfə fərqlənmək hər zaman xoş olur. Mən Dibalayam və müqayisələri sevmirəm. Messi bir futbol əfsanəsidir. O, daha əvvəl futbol tarixində heç kimin bacarmadıqlarına nail olub. Mən kiminləsə müqayisə olunmaq istəmirəm. Öz karyeramı qurub, uğurlar əldə etmək istəyirəm". Qeyd edək ki, Dibala bu mövsüm "Yuventus"un forması ilə artıq 8 qol vurub.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**